HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 36 (776) ▪ 16 sentyabr 2015

www.vergiler.az

Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitində iştirak etmək üçün sentyabrın 10-da Qazaxıstan Respublikasına işgüzar səfərə gəlib.

Səfər çərçivəsində dövlətimizin başçısı Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanadakı Müstəqillik sarayında keçirilən təntənəli mərasimə qatılıb. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, Qırğızıstan Prezidenti Almazbek Atambayevi, Türkiyə Böyük Millət Məclisinin sədri İsmət Yılmazı və Türkmənistan Baş nazirinin müavini Sapardurdu Toyliyevi salamlayıb. Qazax xanlığının 550 illik yubileyinin ölkəsində geniş qeyd edildiyini vurğulayan Prezident Nursultan Nazarbayev xanlığın yaranma tarixindən danışıb.



Sentyabrın 11-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olub. N.Nazarbayev bildirib ki, Azərbaycan və Qazaxıstan xalqları arasında bütün istiqamətlər üzrə yaxınlıq var: «Bu gün biz qaynaqlar barədə danışdıq. Bundan başqa, ölkələrimiz arasında heç vaxt həll edilməmiş bir problem olmayıb - istər sovet dövründə, istərsə də müstəqillik illərində. Dostluq hissi, bir-birimizə etimad, bir-birimizin qayğısına qalmaq hissləri olub, Sizinlə bərabər sevinmişik, Sizinlə bərabər kədərlənmişik. Buna görə də düşünürəm ki, Sizin hər bir səfəriniz, bizim hər görüşümüz ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə yeni səhifədir».

Azərbaycan Prezidenti isə qeyd edib ki, biz bir-birimizə həmişə böyük hörmət bəsləmişik, bir-birimizi dəstəkləmişik: «İkitərəfli münasibətlərin dinamik inkişafı bu gün də davam edir. Bizim aramızda bütün istiqamətlər üzrə tam qarşılıqlı anlaşma var. Prezidentlər səviyyəsində biz çox tez-tez görüşürük - həm Qazaxıstanda, həm Azərbaycanda, həm də başqa ölkələrdə keçirilən tədbirlər çərçivəsində. Həmişə də ikitərəfli və regional məsələləri açıq müzakirə edirik. Əlbəttə, bu gün dünya iqtisadiyyatında yaranmış vəziyyət bizi narahat edir və düşünürəm ki, bu gün biz bu mövzunu da müzakirə edəcəyik. Lakin qeyd etməliyəm ki, bizim hesablamalara görə, Qazaxıstan bu vəziyyətdən minimal itki ilə çıxır. Hərçənd, ölkələrimiz neftin istehsalçıları və ixracatçıları kimi təbii ki, bu sınağa məruz qalıblar. Lakin bu da bizim səmərəliliyimiz üçün bir test olacaq. Düşünürəm ki, sizin qeyd etdiyiniz kimi, biz bunun öhdəsindən ləyaqətlə gələcək və uğurla irəli gedəcəyik».

Həmin gün Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib. Tədbiri giriş nitqi ilə açan Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tarix boyu türkdilli xalqların birlikdə mühüm uğurlar qazandıqlarını söyləyib, bu gün bölgədə sülhün və sabitliyin bərqərar olunması üçün səylərin daha da gücləndirilməsinin, Türk Şurasının beynəlxalq qurumlarda fəal təmsil olunmasının əhəmiyyətini vurğulayıb.

Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, türkdilli ölkələrin əməkdaşlığının təməlində ortaq tarix, ortaq mədəniyyət və etnik köklər dayanır: «Bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası artıq beynəlxalq aləmdə də özünə layiqli yer tuta bilib. Əminəm ki, gələcəkdə Şuranın fəaliyyəti daha da uğurlu olacaq. Bizim humanitar sahə ilə bağlı çox böyük planlarımız var. Humanitar sahə əslində bizi birləşdirən əsas sahədir. Bu baxımdan mən xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. TÜRKSOY nəinki bizim dövlətlərimizi, bütün türk xalqlarını birləşdirir. Əminəm ki, biz gələcəkdə də bu təşkilatın fəaliyyətinə öz dəstəyimizi verəcəyik. Eyni zamanda, TÜRKSOY ilə yanaşı, yeni qurumlar da yaranır. Onların içərisində Türk Akademiyasını xüsusilə qeyd etmək istəyirəm. Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması, hesab edirəm ki, gələcəkdə müxtəlif konkret layihələrin icrası üçün gözəl imkan yaradacaqdır».

Tədbirin sonunda nümayəndə heyətlərinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitinin Bəyannaməsini qəbul ediblər, Şuranın baş katibinin müavininin, Türk Mədəniyyəti və İrsi Fondunun prezidentinin təyin edilməsi ilə bağlı sənədləri imzalayıblar. Bununla da Sammit öz işini başa çatdırıb.

# Çexiya Prezidenti Azərbaycana gəlib

Sentyabrın 15-də Çex Respublikasının Prezidenti Miloş Zeman Azərbaycana rəsmi səfərə gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Çex Respublikasının Prezidenti Miloş Zemanı və xanımı İvana Zemanovanı qarşılayıblar. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Miloş Zemana, Çex Respublikasının nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olunub.

Rəsmi qarşılanma mərasimindən sonra Prezidentlər İlham Əliyev və Miloş Zeman arasında təkbətək görüş keçirilib. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Bu səfərin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib, əlaqələrimizin möhkəmləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanıb. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın iştirakı ilə Azərbaycan-Çexiya sənədləri imzalanıb. Hər iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Prezidenti Miloş Zeman imzalayıblar.

«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Heydər Əsədov və Çex Respublikasının kənd təsərrüfatı nazirinin müavini xanım Yaroslava Beneş Şpalkova imzalayıblar.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiya Prezidenti Miloş Zemanın birgə mətbuat konfransı olub. Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış ediblər. Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Təhsil sahəsinə göstərilən diqqət dövlət siyasətinin əsas prinsiplərindəndir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də - Bilik günündə Bakının Sabunçu rayonundakı 148 nömrəli tam orta məktəbdə yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsib, təhsil ocağında yaradılan şəraitlə tanış olub, sonra isə məktəbin müəllim və şagird kollektivi ilə görüşüb.

Sentyabrın 12-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonundakı 5 nömrəli Bakı Peşə Liseyində həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Dövlətimizin başçısı liseydə yaradılan şəraitlə yaxından tanış olub. Bildirilib ki, liseydə 41 kabinet yaradılıb. Bunlardan 7-si fənn kabineti, 3-ü laboratoriya, 23-ü isə ümumtəhsil fənn kabinetidir. Təhsil ocağında 8 tədris emalatxanası var. Qeyd olunub ki, lisey 2013-cü ildən ilk peşə ixtisas təhsili müəssisələrinin infrastrukturunun inkişafına yönələn, dövlət-biznes tərəfdaşlığına əsaslanan «Müasir Azərbaycan peşəkarları» layihəsinin icrasına başlayıb. Layihə çərçivəsində müxtəlif peşələr üzrə yüksək maddi-texniki bazaya malik tədris ocaqları yaradılıb. Liseydə turizm sektoruna aid ixtisasların hazırlanmasına da böyük əhəmiyyət verilir. Bunun nəticəsidir ki, bu il ölkəmizdə keçirilən ilk Avropa Oyunlarının iştirakçılarına xidmət göstərmək üçün müxtəlif peşələr üzrə 200 nəfərdən artıq kadr hazırlanıb.

Bakı Peşə Liseyində istehsalat təlim dərslərini yüksək səviyyədə həyata keçirmək üçün bütün ixtisaslara uyğun emalatxanalar yaradılıb və lazımi avadanlıqla təchiz olunub. Məktəbin idman zalı da müasir səviyyədədir. Liseydə bu ildən yeni fizika və kimya laboratoriyaları və kitabxana yaradılıb.



Həmin gün Prezident İlham Əliyev Bakının Xətai rayonundakı 264 nömrəli məktəb-liseydə yaradılan şəraitlə də tanış olub. Dövlətimizin başçısına görülən təmir və yenidənqurma işləri barədə məlumat verilib.

1981-ci ildə təsis olunan və o vaxtdan bu binada fəaliyyətə başlayan məktəb-liseydə indiyədək əsaslı təmir işləri aparılmayıb. Binada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Foyedə ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və Prezident İlham Əliyevin paytaxtın Xətai rayonundakı təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Təhsil ocağının həyətində də abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol, voleybol və basketbol meydançaları yaradılıb.

Burada təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Təhsil ocağında tədris ikinövbəli rejimdə aparılır. Məktəbdə Azərbaycan və rus bölmələrində 1399 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 117 müəllim məşğul olur. Şagirdlər 7-ci sinifdən etibarən texniki və humanitar siniflərə bölünürlər.

264 nömrəli məktəb-lisey 2008-ci və 2014-cü illərdə ilin ən yaxşı məktəbi seçilib. 2014-2015-ci tədris ilində məktəbi bitirən 98 məzunun 76 faizi ali məktəblərə qəbul olunub. Onlardan 7-si 600-dən yuxarı bal toplayıb.

Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.

# Bakı-Sumqayıt sərnişin qatarı xəttə buraxıldı

Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınması mərasimində iştirak edib. Dövlətimizin başçısına Bakı-Biləcəri-Sumqayıt dəmir yolu layihəsi ilə bağlı görülən işlər barədə məlumat verilib. Bildirilib ki, yolun ümumi uzunluğu 84 kilometrdir. Marşrut üzərində Bakı, Keşlə, Biləcəri, Xırdalan, Güzdək, Sumqayıt sərnişin stansiyaları, 10-cu və 6-cı blok post-ayırma məntəqələri yerləşir. Stansiya və ayırma məntəqələrinin baş yolları üzərində 106 dəst yoldəyişən qurğu quraşdırılıb. Sahədə sonuncu təmir işləri 1985-ci ildə aparılıb.

Bakı sərnişin stansiyasının yenidən qurulması işləri çərçivəsində 4 yeni platforma inşa olunub. Onların birinin uzunluğu 310, digərlərinin uzunluğu isə 254 metrdir. Stansiyada qatarların qəbulu və yola salınması üçün nəzərdə tutulan yolların dördündə əsaslı təmir işləri görülüb, kontakt şəbəkəsi və işarəvermə avadanlıqları yenilənib. Hazırda ümumi sahəsi 8 min kvadratmetr olan 17 mərtəbəli «Vağzal» mehmanxanasında və sərnişinlərin gözləmə zalında da əsaslı təmir işləri aparılır.Dörd vaqondan ibarət olan elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 919 nəfər, oturacaq yerlərinin sayı isə 396-dır. İkimərtəbəli elektrik qatarlarında biznes-sinfə aid 84 oturacaq da var. Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçiriləcək.

Yeni qatarın ilk sərnişin bileti xatirə olaraq dövlətimizin başçısına təqdim edilib. Prezident İlham Əliyev Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınmasını bildirən rəmzi lenti kəsib və zəngi vurub.

2 | Vergi Apelyasiya Şurasının iclasında

3 | Gələn ilin dövlət büdcəsində sosial xərclər mühüm yer tutacaq

4 | Nağdsız hesablaşmaların genişləndirilməsi ilə bağlı işlər davam etdirilir

5 | «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumu

# Vergi Apelyasiya Şurasının iclasında

***Vergi Apelyasiya Şurasında «ABS-Əmlak» Məhdud Məsuliyyətli Cəmiyyətinin Vergilər Nazirliyinə daxil olmuş operativ nəzarət tədbiri nəticəsində tətbiq olunmuş maliyyə sanksiyasının ləğv edilməsi ilə bağlı təkrar şikayətinə baxılmışdır.***

Cəmiyyətin direktoru Məmmədov Ramiz Abdulla oğlu Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Operativ nəzarət idarəsi tərəfindən keçirilmiş operativ vergi nəzarəti zamanı Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxsin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi halının aşkar edilərək, ona 1000 (min) manat məbləğində maliyyə sanksiyasının tətbiq edildiyini bildirmiş, həmin aktdan verilmiş şikayətin təmin olunmaması ilə bağlı əvvəlki qərara yenidən baxılmasını xahiş etmişdir.

3 fevral 2015-ci il tarixdə vergi uçotuna alınmış, əsas fəaliyyəti daşınmaz əmlakla aparılan əməliyyatlar üzrə agentlik fəaliyyətindən ibarət olan cəmiyyətin direktoru araşdırmaya təqdim etdiyi izahatında müraciətinin səbəbi kimi cəmiyyəti dövlət qeydiyyatından yeni keçirdiyini, qanunları tam bilmədiyi üçün işçisi ilə əmək müqaviləsi bağlamadığını, maddi vəziyyətinin tətbiq edilmiş maliyyə sanksiyasını ödəməyə imkan vermədiyini və keçirilmiş operativ vergi nəzarəti tədbirindən sonra bütün işçiləri ilə əmək müqaviləsi bağladığını göstərmişdir.

Aparılmış araşdırma nəticəsində vergi ödəyicisinin fəaliyyət göstərdiyi ünvanda yerləşən obyektində 15 may 2015-ci il tarixdə keçirilmiş operativ vergi nəzarəti zamanı Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən 1 nəfər fiziki şəxsin iş və xidmətlərin yerinə yetirilməsinə cəlb edildiyi, lakin onunla əmək müqaviləsi bağlanmadığı aşkarlanmışdır. Qanunvericiliyə uyğun olaraq, bununla bağlı müvafiq akt tərtib edilmiş və həmin akt R.Məmmədov tərəfindən imzalanmışdır. Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə, işəgötürənə 1000 (min) manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

R.Məmmədov izahatında etiraf etmişdir ki, işçi qismində cəlb etdiyi Məmmədov Arzu Abdulla oğlunu 10 aprel 2015-ci il tarixdən işə qəbul etmiş, lakin onunla əmək müqaviləsi bağlamamışdır. İşçi ilə əmək müqaviləsinin 1 iyun 2015-ci il tarixdə bağlanaraq bildirişin 8 iyun 2015-ci il tarixdə alınması R.Məmmədov tərəfindən vergi qanunvericiliyinin tələblərinin pozulduğunu göstərir.

Araşdırma zamanı vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən halların olmadığı müəyyən edilmişdir. MMC-nin vergi qanunvericiliyinin tələblərinə əməl etməməsi vergi ödəyicisi barəsində tərtib edilmiş aktın və qərarın qüvvədə saxlanılmasına əsas verir. «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» qərar Vergi Məcəlləsinin tələbləri gözlənilməklə, düzgün olaraq qəbul edilmiş, operativ vergi nəzarətinin nəticələrinin rəsmiləşdirilməsi Vergi Məcəlləsinin tələblərinə əsasən müəyyən edilmiş qaydada həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsinin III hissəsinə əsasən, qanunu bilməmək məsuliyyətdən azad etmir. Əmək Məcəlləsinin 12-ci maddəsinin müddəalarına əsasən, Əmək Məcəlləsinin və əmək qanunvericiliyinə dair digər normativ hüquqi aktların tələblərini yerinə yetirmək işəgötürənin əsas vəzifələrinə aid edilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Vergi Apelyasiya Şurası «ABS-Əmlak» MMC-nin təkrar şikayətinin təmin edilməməsi, Bakı Vergilər Departamentinin tərəfindən tərtib olunmuş «Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması ilə bağlı operativ vergi nəzarətinin nəticəsi haqqında» aktın və həmin akt əsasında çıxarılmış «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» qərarın qüvvədə saxlanılması barədə qərar qəbul etmişdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanın 2016-cı ilin dövlət büdcəsi layihəsində büdcə gəlirləri **14,566 mlrd.** manat, xərcləri isə **16,264 mlrd.** manat həddində göstərilib.
- 2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə **6,6 mlrd.** manatdan çox daxilolma proqnozlaşdırılır.
- 2016-cı ildə Azərbaycan Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə **1 mlrd. 590 mln.** manat daxilolma proqnozlaşdırılır.
- 2016-cı il dövlət və icmal büdcələrin gəlirlərinin hesablamaları zamanı xam neftin satış qiymətinin 1 bareli üçün **50** ABŞ dolları götürülüb.
- 2016-cı ildə əhalinin gəlirlərinin 2015-ci ilin gözlənilən göstəricilərinə nisbətən **1,2%** artaraq **43,8 mlrd.** manat olacağı proqnozlaşdırılır.
- Qarşıdakı ildə sosial ipotekanın tətbiqinin genişləndirilməsi üçün İpoteka Fonduna **50 mln.** manat vəsait ayrılacaq.

# 2015-ci ilin yanvar-avqust aylarında vergi daxilolmaları

2015-ci ilin yanvar-avqust ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 4 milyard 565 milyon 375,8 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 101,4 faiz əməl edilmişdir. Hesabat dövründə vergi orqanlarında 52897 vergi ödəyicisi qeydiyyata alınmışdır.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınıb

Bakı Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Yasamal rayonu, general Akim Abbasov küçəsi, ev 15 ünvanında yerləşən, «Database» MMC-yə məxsus «Şərq» restoranında əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin fəaliyyəti araşdırılarkən onun 1600 manat vergi borcunun yarandığı müəyyən edilmiş, borcun ödənilməsi barədə bildiriş göndərilsə də borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyindən, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, vergi borcunun ödənilməsini təmin etmək məqsədilə 2015-ci il sentyabrın 7-də əmlakın siyahıya alınması haqqında qərar çıxarılmışdır. Vergi orqanı əməkdaşları tərəfindən ictimai iaşə obyektində olan 1600 manat məbləğində müxtəlif növ məişət avadanlığı və mebel müvafiq qaydada siyahıya alınmışdır.

Səbail rayonu, Nizami küçəsi, ev 96 ünvanında yerləşən, «Tam xarici investisiyalı «Barakalı» LTD» MMM-ə məxsus «Zirvə elektrik» mağazasında da əmlakın siyahıya alınması tədbiri keçirilmiş, vergi ödəyicisinin 11666 manat vergi borcu müqabilində obyektdəki 12000 manat dəyərində müxtəlif növ elektrik malları müvafiq qaydada siyahıya alınmışdır.

Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi, 2-ci paralel ünvanında yerləşən, fiziki şəxs Şahin Sərdara məxsus «Sürmene» restoranında əmlakın siyahıya alınması tədbiri keçirilmiş, vergi ödəyicisinin 2652 manatlıq vergi borcunun ödənilməsi üçün 3000 manat dəyərində məişət avadanlığı müvafiq qaydada siyahıya alınmışdır.

# Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmətlər

Vergilər Nazirliyinin internet vasitəsilə göstərdiyi 60 elektron xidmətdən yeddisi Çağrı Mərkəzi tərəfindən həyata keçirilir. Bu xidmətlərin yaratdığı imkanlardan daha faydalı istifadə edə bilmək üçün ayrı-ayrı xidmətlərlə bağlı mühüm məqamları diqqətə çatdırırıq.

***Vergi qanunvericiliyi və elektron xidmətlərin tətbiqi ilə bağlı sualların cavablandırılması***

Bu xidmət vasitəsilə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195) zəng etməklə vergi ödəyiciləri vergi qanunvericiliyi və elektron xidmətlərin tətbiqinə aid suallara operativ cavab və elektron xidmətlərin tətbiqi zamanı yaranmış texniki problemlərin aradan qaldırılmasına dair yardım ala bilərlər. Xidmət real vaxt rejimində həyata keçirilir və daxil olmuş müraciətlər dərhal cavablandırılır. Müraciət edən şəxsin sualına tam və əhatəli cavab vermək mümkün olmadıqda onunla təkrar əlaqə yaradılaraq məlumatlandırılması üçün sual vərəqəsi tərtib edilir. Bu tipli müraciətlərə «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununa əsasən baxılır.

İnformativ növlü bu xidmətin göstərilməsi üçün ödəniş nəzərdə tutulmayıb, istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz. Xidmət www.taxes.gov.az və www.e-gov.az elektron ünvanlarında təqdim olunur və ondan fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. Xidmətin göstərilməsi üçün müraciət edən şəxsdən hər hansı sənəd tələb olunmur və sorğunun yerinə yetirilməsindən heç bir halda imtina edilmir.

Xidmətdən istifadə üçün 195 nömrəsinə zəng edən şəxs 1 düyməsini sıxmaqla Çağrı Mərkəzinə qoşulur. Müraciət vergi qanunvericiliyinin tətbiqi ilə bağlıdırsa 1, elektron xidmətlərlə bağlıdırsa 2 düyməsini sıxmaqla, istifadəçi canlı rejimdə xidmət göstərən Çağrı Mərkəzinin əməkdaşına bağlanır.

***Vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə müraciətlərin qəbulu***

Bu xidmət vasitəsilə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195) zəng etməklə bütün fiziki və hüquqi şəxslər vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə müraciət edə bilərlər. Xidmət real vaxt rejimində həyata keçirilir və daxil olmuş müraciətlər dərhal qəbul olunur.

Bu elektron xidmət də informativ növlüdür və heç bir ödəniş nəzərdə tutulmayıb. Xidmət www.taxes.gov.az və www.e-gov.az ünvanlarında təqdim olunur.

195 nömrəsinə zəng edən şəxs 1 düyməsini sıxmaqla Çağrı Mərkəzinə qoşulur və yenidən 1 düyməsini sıxmaqla canlı rejimdə xidmət göstərən Mərkəzin əməkdaşına bağlanır. Müraciətlə əlaqədar «Şikayət vərəqəsi» tərtib edilir ki, bu zaman müraciət edən şəxs adını, atasının adını, soyadını, ünvanını və telefon nömrəsini,vergi ödəyicisi olduğu halda isə VÖEN-ni də deməlidir. Müraciət edən şəxs bu tələblərə əməl etmədikdə, habelə şikayətdə qaldırılan məsələlərin həlli dövlət vergi orqanlarının səlahiyyətlərinə aid olmadıqda Çağrı Mərkəzinin əməkdaşı tərəfindən qüvvədə olan qanunvericiliyə istinad edilərək şikayətə baxılmasının mümkün olmadığı bildirilir.

**AYTƏN**

# «Elektron hökumət»in əhatə dairəsi genişlənir



Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli fərmanına uyğun olaraq modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə «Elektron hökumət» portalı yaradılıb.

Hazırda portalda 409 e-xidmət vətəndaşların istifadəsindədir. Avqustun 1-nə olan məlumata görə, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş 454 xidmətdən 335-i portala artıq inteqrasiya edilib və siyahıda əks olunan digər xidmətlərin elektron formada portala inteqrasiyası üçün operativ işlər davam etdirilir. Portalın istifadəçilərinin sayı 2,4 milyon nəfərdən artıqdır və onlar 15,5 milyon dəfədən çox e-xidmətlərdən istifadə üçün müraciət ediblər. Bu gün portala 80-dən artıq fiziki qoşulma var. Bunlardan 48-i dövlət qurumları, digərləri isə özəl sektorun nümayəndələri və banklardır.

***Arayışların böyük əksəriyyəti elektron qaydada əldə olunacaq***

2015-ci il iyulun 14-də «Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»ın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalanıb. Bu dəyişiklik elektron sənədlərin hüquqi tərəflərini müəyyən etməklə elektron sənədlərin tətbiq zəruriyyətini təsdiqləyir. Müvafiq fərman əsasında artıq bir ildən çoxdur ki, kağız üzərində təqdim olunan arayışların onlayn ekvivalentləri üzərində işlər aparılır. Bununla bağlı portalda yeni bölmə - «Elektron arayışlar» yaradılıb. Bu gün artıq Azərbaycan vətəndaşı yaşayış, iş yerindən, diplom və təhsil haqqında, kommunal borcun olmaması barədə və sair arayışlar üçün digər qurumlara müraciət etmək məcburiyyətində deyil. Hazırda bu sahədə də işlər davam etdirilir, tezliklə vətəndaşlar bir çox digər arayışları da portal vasitəsilə əldə etmək imkanı qazanacaqlar.

Bu il elektron müraciətlər üzrə tələblər üzərində işlənilib, bir sıra e-xidmətlərin interfeysi yenilənib. Bununla yanaşı, portalın vətəndaş yönümlü servisləri təkmilləşdirilib, real vaxt rejimində istifadəçilərin müraciətlərinin cavablandırılması üçün «Online konsultasiya» servisi istifadəyə verilib.

***«Elektron hökumət» quruculuğunun inkişafı üçün xidmətlərin keyfiyyəti artırılır***

Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən (RYTN) verilən məlumata görə, «Elektron hökumət» portalının Çağrı Mərkəzi - «157» xidməti yenidən qurularaq vətəndaşların istifadəsinə təqdim edilib, həmçinin bu ildən etibarən inkişaf çərçivəsi genişləndirilərək «e-gov 3.0» mərhələsinə başlanılıb. Yanvar ayından etibarən «data.gov.az» açıq məlumatlar portalı fəaliyyətə başlayıb və hazırda burada 5 dövlət qurumu tərəfindən 25 adda məlumat bazası istifadəyə açıq edilib.

Portalın işinin məqsədyönlü inkişafı üçün diqqətdə olan əsas məsələlərdən biri qurumlar arasında informasiya mübadiləsi prosesinin düzgün təşkilidir. Bununla əlaqədar dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərinin operatoru olaraq RYTN-nin Məlumat Hesablama Mərkəzi tərəfindən dövlət informasiya ehtiyatlarının və sistemlərinin reyestrlərdə qeydiyyatı aparılır və mütəmadi qaydada qurumların mülkiyyətində olan informasiya sistemlərinin monitorinqi həyata keçirilir. Bu il informasiya sistemlərinin fərdi identifikasiya nömrəsinə (FİN) uyğunlaşdırılması, informasiya sistemlərinin vahid identifikator üzrə formalaşdırılması istiqamətində ciddi işlər görülüb, kommunal xidmət təqdim edən qurumlara bu sahədə köməklik göstərilib. Eləcə də cari ilin yay aylarında mobil operatorların informasiya sistemləri sahəsində ciddi iş aparılıb və tezliklə mobil nömrələrin satışı, nömrələrin digər operatora daşınması və addan-ada keçirilməsi prosesi zamanı məlumatların ilkin mənbədən formalaşdırılması tamamilə «Elektron hökumət» portalı üzərindən həyata keçiriləcək.

**Vətəndaşlar gündəlik həyatda istifadə olunan bir çox xidmətlərdən mobil qurğular vasitəsilə yararlana biləcəklər**

***Vəzifəli şəxslərin qəbuluna yazılmaq elektron qaydada aparılır***

Məlumat Hesablama Mərkəzinin direktoru Nail Mərdanovun sözlərinə görə, bu gün mobil operatorların informasiya sistemlərində FİN-ə və digər identifikatorlara uyğun olmaması səbəbindən, ünvanlı SMS göndərilməsində çətinliklər mövcuddur. İnformasiya sistemlərinin FİN-ə uyğunlaşdırılması isə elektron xidmətlərdən istifadə zamanı müxtəlif SMS xidmətlərindən ünvanlı istifadə üçün geniş imkanlar yaradacaq. Sosial yönümlü xidmətlər göstərən təminatçılarla mütəmadi olaraq görüşlər və məsləhətləşmələr keçirilir. Xidmətlərin hazırlanması və istismarında innovativ yeniliklərin, yeni texnoloji üsulların tətbiqi təşviq edilir. Nümunə üçün, cari ildə bəzi icra hakimiyyətləri ilə əməkdaşlıq edilərək bir sıra sosial xidmətlərin elektronlaşması istiqamətində işlər görülüb, fikir və təcrübə mübadiləsi aparılıb. «Yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qəbuluna «Elektron hökumət» portalı vasitəsilə yazılmaq və prosesin onlayn izlənilməsi» xidmətinin hazırda vətəndaşlar üçün daha çox aktual olduğu müəyyən edilib və bu xidmət tam şəkildə elektronlaşdırılaraq istifadəyə verilib.

Yeni mövsümdə daha çox istifadə olunan xidmətləri və xüsusən də elektron arayışları özündə birləşdirən portalın mobil əlavələrinin istifadəyə verilməsi planlaşdırılır. Yəni vətəndaşlar gündəlik həyatda daha çox istifadə olunan bir çox xidmətlərdən mobil qurğular vasitəsilə, rahat interfeysdən istifadə etməklə yararlana biləcəklər.

**Rəşad SADIQOV**

# Gələn ilin dövlət büdcəsində sosial xərclər mühüm yer tutacaq



*Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyevin «Vergilər» qəzetinə müsahibəsi*

***- Musa müəllim, yaxın vaxtlarda 2016-cı ilin dövlət büdcəsi layihəsi Milli Məclisə təqdim olunacaq. Layihədə sosial sahələrlə bağlı hansı dəyişikliklər gözlənilir?***

- 2016-cı ilin dövlət büdcəsi layihəsi üzərində hələlik müzakirələr getdiyindən bununla bağlı konkret söz demək tezdir. Hazırda büdcə layihəsi müvafiq qurumların təklifləri əsasında ölkəmizin sosial-iqtisadi göstəriciləri üzərində təhlillər aparılır. Bütün bu məsələlər nəzərə alındıqdan sonra büdcənin sosial istiqamətləri də məlum olacaq. Büdcə layihəsi adətən oktyabr ayının sonlarında Milli Məclisə təqdim olunur və noyabr ayında Məclisdə baxılır. Amma ümumi şəkildə söyləyə bilərik ki, ölkənin ali maliyyə sənədi son dövrlər dünyada gedən qlobal maliyyə və iqtisadi proseslərdə müşahidə olunan dəyişikliklər nəzərə alınmaqla tərtib edilir.

Azərbaycan dövlətinin daxili siyasətində sosial sahə prioritet istiqamətlərdən olub. Bu mənada, qarşıdakı ilin dövlət büdcəsi layihəsinin sosialyönümlü olması əsas götürülərək respublika əhalisinin maddi rifahının daim yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafına dəstəyin artırılması və digər mühüm sosial-iqtisadi amillərə xüsusi diqqət yetiriləcək. Büdcə layihəsində əmək haqlarının, müavinət və pensiyaların inflyasiyanın səviyyəsinə uyğun indeksasiyası və vaxtında ödənişi təmin olunacaqdır.

***- Bir sıra dairələrdə neftin qiymətinin aşağı düşməsi ilə bağlı bəzi investisiya layihələrinin təxirə salınacağına dair məlumatlar dolaşır. Sosial proqramların icrasında hansısa problem gözlənilmir ki?***

- Azərbaycan dünyanın bir parçasıdır və qlobal iqtisadi proseslər hansısa formada bizə də təsir edir. Qlobal iqtisadi mühitdə cərəyan edən qeyri-sabitlik və xammal məhsullarının, o cümlədən neft və neft məhsullarının qiymətlərinin kəskin şəkildə aşağı düşməsi, təbii ki, iqtisadi və maliyyə sahəsində müəyyən dəyişiklikləri meydana çıxarır. Neftin qiymətinin aşağı düşməsi isə heç şübhəsiz, gəlirlərimizin azalmasına səbəb olacaqdır. Amma bu heç bir halda Azərbaycanda həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmayacaqdır. Ölkə iqtisadiyyatı baş verən proseslərə dayanıqlılıq potensialını nümayiş etdirməklə sabit inkişafı təmin edəcək.

Cənab Prezidentin də qeyd etdiyi kimi, heç bir halda sosial proqramlar məhdudlaşmayacaqdır. Çünki hazırda Azərbaycan iqtisadiyyatında artım templəri davam etməkdədir və iqtisadi inkişafla bağlı nikbin ssenarilər mövcuddur. Ölkəmizin mövcud maliyyə resursları və ən aşağı səviyyədə xarici borc əmsalına malik olması iqtisadi çətinliklərdən çıxmağa və sosial-iqtisadi inkişafı davam etdirməyə əsaslı zəmin yaradır.

***- Əhalinin sosial rifah halının yaxşılaşdırılması sahəsində hansı layihələrin həyata keçirilməsi planlaşdırılır?***

- İnsanların sosial həyat şəraitinin yaxşılaşdırılması və gələcək keyfiyyətli sosial yaşayışının təmin olunması hökumətin həyata keçirdiyi iqtisadi siyasətin başlıca istiqamətidir. Bu sahədə 40-dan çox Dövlət Proqramı qəbul olunub və hazırda onların icrası ilə bağlı müvafiq layihə və tədbirlər planı yerinə yetirilməkdədir. Həmin sənədlər sırasında yoxsulluğun azaldılması, ünvanlı sosial yardımların verilməsi və bu sistemin daha da təkmilləşdirilməsi, məşğulluğun təmin edilməsi, əhalinin icbari dispanserizasiyası, sosial əhəmiyyətli xəstəliklərin ayrıca maliyyələşdirilməsi, xaricdə təhsil, deinstitutlaşma, aztəminatlı ailələrə dəstək, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafı və s. mühüm yer tutur. Bu proqramların icrası son illərdə sosial sahədə əhəmiyyətli dəyişikliklərə səbəb olub və əminəm ki, növbəti ildə də öz bəhrəsini verəcəkdir. Dövlət öz maliyyə resurslarını və büdcə gəlirlərini, ilk növbədə, əsas xərc istiqamətləri kimi vətəndaşların rifah halının yaxşılaşdırılması, aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsi, ehtiyac meyarının mərhələlərlə yaşayış minimumuna çatdırılması, sosial sahədə mövcud olan digər problemlərin aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsinə yönəldəcək.

***- Dövlət başçısı sosial ipotekanın əhatəsinin genişləndirilməsi üçün müvafiq qurumlara tapşırıqlar verib. Bununla bağlı hansı mühüm yeniliklər nəzərdə tutulur?***

- Qeyd etdiyiniz kimi, bu məsələ dövlət başçısının diqqətindədir və ipoteka imkanlarının genişləndirilməsi ilə bağlı maliyyə təminatının artırılması barədə sərəncam da verilmişdir. Sərəncamdan irəli gələn məsələlərin həlli ilə bağlı Mərkəzi Bank müvafiq hökumət qurumları ilə birgə çalışır, ipotekanın əhatəliliyinin artırılması üçün müxtəlif təklif və rəylər nəzərdən keçirilir. Hazırda əsas təklif olunan məsələ sosial ipotekanın əhatə dairəsinin genişləndirilməsi və sosial qrupların bu maliyyədən bəhrələnə bilməsidir. Bu sahədə şərtlərin yumşaldılması da təkliflər sırasındadır. Təbii ki, hər bir təklif və arzu başadüşüləndir, amma hər bir təklifin iqtisadi əsasları və real icra mexanizmləri də olmalıdır.

***- Hazırda gündəmdə olan məsələlərdən biri də sosial evlər layihəsinin ölkəmizdə tətbiqi ilə bağlıdır. Bu istiqamətdə hansı işlərin həyata keçirilməsi planlaşdırılır, Sosial Mənzil Fondunun yaradılması sahəsində vəziyyət necədir?***

- Bu, ölkə əhalisinin mənzil təminatının yaxşılaşdırılması sahəsində alternativ imkanlardan biridir və maliyyə-iqtisadi çətinliklərə baxmayaraq, həyata keçirilməsi vacib olan sosial layihələrdən biridir. Milli Məclisdə hökumətin hesabatı və büdcə müzakirələri zamanı deputatlar tərəfindən təklif olunub. Əldə etdiyim məlumata görə, hökumət qurumları tərəfindən bu layihələrin tətbiq olunması üzərində müvafiq işlər aparılır.

***- İcbari tibbi sığorta ilə bağlı hansı yeniliklər nəzərdə tutulur, 2016-cı ildə bu sığorta növünün tətbiqi mümkün olacaqmı?***

- İcbari tibbi sığorta səhiyyə xidmətlərinin maliyyələşdirilməsinin ən optimal üsullarından biri olsa da, bu sistemə keçidin müəyyən çətinlikləri də var. Dünyada maliyyə-iqtisadi böhranın davam etdiyi və daha da dərinləşə biləcəyi bir şəraitdə onun Azərbaycan iqtisadiyyatına, xüsusilə sığorta və əmək bazarına nələr vəd etdiyini proqnozlaşdırmadan ən həssas sahə olan səhiyyənin maliyyələşdirilmə mexanizminin kəskin şəkildə dəyişdirilməsi arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Mənim fikrimcə, gələn il icbari tibbi sığortanın yalnız pilot şəklində hansısa bir rayonda tətbiqi barədə düşünmək daha real olar.

***- Ünvanlı sosial yardımların verilməsi mexanizminin elektronlaşdırılması sahəsində mühüm addımlar atılmaqdadır. Yardımların həcminin artırılması və bu sistemin daha da təkmilləşdirilməsi nəzərdə tutulurmu?***

- Ünvanlı sosial yardım yoxsulluğun aradan qaldırılması və aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımdır. Son illərdə bu sahədə xeyli təkmilləşmələr aparılmışdır. Ünvanlı yardımların təyin edilməsinin elektronlaşdırılması, həmçinin müddətin 2 ilə qədər uzadılması məmur-vətəndaş təmasını aradan qaldırmaqla baş verə biləcək neqativ halların da minimuma endirilməsinə, şəffaflığın təmin edilməsinə səbəb olacaqdır. Yardımların məbləği yaşayış minimumuna bağlı olduğundan, hələ büdcə layihəsi təsdiq edilmədiyi üçün bu barədə indidən konkret söz söyləmək düzgün olmazdı. Yaxın vaxtlarda bu məsələyə də aydınlıq gətiriləcək.

**Elbrus CƏFƏRLİ**

# Gənclərin məşğulluğu diqqət mərkəzindədir

Ölkəmizdə vətəndaşların əmək hüquqlarının qorunması, əmək qanunvericiliyinin təkmilləşdirilməsi sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir. İşsiz və işaxtaran vətəndaşların, həssas əhali qruplarının əmək bazarına daha tez inteqrasiyası məqsədilə məşğulluq orqanları tərəfindən kadr potensialı daim təkmilləşdirilir, işsiz vətəndaşların işlə təminatı, əmək yarmarkaları, əmək birjaları keçirilir. Dövlət tərəfindən gənclərin məşğulluğunun artırılmasına, onların əmək bazarına adaptasiyasının asanlaşdırılmasına, peşəyönümü sisteminin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.



Yeni M   ulluq Konsepsiyas nda g ncl rin m   ullu unun art r lmas  m s l sin  x susi yer

Ötən həftə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və Beynəlxalq Əmək Təşkilatının (BƏT) birgə təşkilatçılığı ilə «Gənclərin məşğulluğu üzrə siyasətlərin, proqramların və institutların qiymətləndirilməsi» mövzusunda Bakıda keçirilən seminarda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və əmək ehtiyatlarından səmərəli istifadənin, o cümlədən gənc işçi qüvvəsinin iqtisadi tərəqqi proseslərinə fəal şəkildə səfərbər olunması ilə bağlı müzakirələr aparılıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov ölkə rəhbərliyi tərəfindən təsdiq olunmuş dövlət proqramlarının uğurla icrası nəticəsində gənclərin təhsil səviyyəsinin və məşğulluğunun artırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən ardıcıl tədbirlərə toxunaraq qeyd edib ki, bu tədbirlərin nəticəsi olaraq, son 5 il ərzində Azərbaycanda 15-29 yaşda gənclər arasında işsizlik səviyyəsi 11,8%-dən 9,7%-dək, 15-24 yaşda isə 14,9%-dən 13,5%-dək azalıb. Bu uğurlara görə ölkəmiz BƏT tərəfindən gənclərin məşğulluq problemlərinin həllində dünyada 10 lider ölkə sırasına daxil edilib. Nazir bildirib ki, dünyanın ən aparıcı dövlətlərinin təmsil olunduğu G20 ölkələrində 15-24 yaşda gənclərin işsizlik səviyyəsinin orta göstəricisi 20% olduğu halda, Azərbaycanda bu göstərici 13,5% təşkil edir: «Hazırda ölkəmiz Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik az sayda olan ölkələrdən biridir. Azərbaycan əhalisinin 28,5 %-i gənclərdir və 2014-cü ilin sonuna demoqrafik yük əmsalı 1990-cı ilə nisbətən 1,7 dəfə azalaraq 40 nəfər təşkil edib. Mövcud demoqrafik vəziyyət və bu sahədə perspektiv qiymətləndirmələr ölkədə iqtisadi inkişaf, demoqrafiya, təhsil və məşğulluq siyasətlərinin qarşılıqlı əlaqələndirilməsinin gücləndirilməsini zəruri edir».

S.Müslümov ölkədə gənclərin məşğulluğu sahəsində dövlət siyasətinin daim təkmilləşdirilməkdə olduğunu da diqqətə çatdırıb: «Azərbaycanın gələcək 7 il ərzində inkişaf perspektivlərini müəyyən edən «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında gənclərin sağlam və fəal həyat tərzinin təşviq edilməsi, onların məşğulluq imkanlarının genişləndirilməsi və cəmiyyətə inteqrasiyasının təmin olunması ölkənin inkişafı üçün əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Hazırda ölkədə mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin iqtisadi prioritetlərinə uyğun uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə yeni Məşğulluq Konsepsiyasının hazırlanması üzrə işlər aparılır və bu Konsepsiyada gənclərlə bağlı məsələlərə xüsusi yer ayrılacaqdır. Gənclərin məşğulluğunun artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi həm ölkə miqyasında, həm də hər bir müəssisə səviyyəsində əməyin məhsuldarlığının artmasına imkan yaradacaq, bu isə öz növbəsində BƏT-in əmək konsepsiyasının yüksək səviyyədə həyata keçirilməsini təmin edir».

**AYTƏN**

# Ünvanlı sosial yardım sistemi elektronlaşdırılır

«E-hökumət» layihəsi «Elektron Azərbaycan» Dövlət Proqramı çərçivəsində həyata keçirilərək dövlət orqanlarında fəaliyyətin səmərəliliyinin artırılması, şəffaflığın təmin olunması, idarəetmə metod və mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində böyük uğurlara imza atmaqdadır. Layihə informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi ilə ictimai qərarların qəbul edilməsində vətəndaşların iştirakına şərait yaradılması, hökumət orqanları ilə əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutur, vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına və informasiya tələbatının dolğun ödənilməsinə şərait yaradır.

Elektron hökumətə keçidlə bağlı bir çox xidmətlərin elektronlaşdırılması insanları gündəlik həyat qayğıları zamanı üzləşdikləri bəzi problemlərdən azad edir. Bir müddət öncə isə ünvanlı sosial yardım almaq istəyənlərin də istifadəsinə elektron xidmətin veriləcəyi, avqust ayından başlayaraq pilot layihə vasitəsilə ünvanlı sosial yardım müraciətlərinin, eləcə də mərkəzlərin yardım təyin etməsi və imtina cavablarının elektron qaydada həyata keçiriləcəyi gözlənilsə də, ötən ay prosesin icrasına başlanılmadı.

Avqustun sonunda Tovuzda vətəndaşları qəbul edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, sentyabr ayından başlayaraq bir neçə rayonda pilot layihə kimi elektronlaşma işinə başlanılacaq. Bu ay icrası planlaşdırılan sosial yardımların elektronlaşdırılması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin «Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında» 23 fevral 2015-ci il tarixli fərmanının icrası ilə bağlı nazirlik tərəfindən vaxtında və heç bir gecikmə olmadan yerinə yetirilir. ƏƏSMN-də təsdiq edilmiş Tədbirlər Planı əsasında və nazirlikdə yaradılmış işçi qrup tərəfindən ünvanlı dövlət sosial yardım sisteminin elektron əsaslar üzərində avtomatlaşdırılması istiqamətində mərhələli şəkildə işlər aparılıb. Sistemin elektron əsaslar üzərində avtomatlaşdırılması üçün lazımi texniki infrastruktur hazırdır: «Mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması üçün müvafiq texniki infrastrukturun hazırlanması işləri artıq yekunlaşdırılıb. Yeni sistem hazırda test yoxlamaları əsasında təkmilləşdirilir».

Sistemə keçidlə əlaqədar yeni qaydalar artıq hazırdır. E.Babayevin sözlərinə görə, müvafiq proqram təminatları hazırda test yoxlamaları mərhələsindədir və elektron infrastruktur təkmilləşdirilir. Sistemə keçidlə əlaqədar yeni qaydalar da hazırdır: «Qeyd olunan avtomatlaşdırılmış sistem eyni zamanda müraciətlər əsasında vətəndaşların ünvanlı dövlət sosial yardımı almaq hüququna baxılması üçün onlara dair lazımi məlumatların «Elektron hökumət» portalı üzərindən aidiyyəti dövlət qurumlarının informasiya resurslarından real vaxt rejimində əldə edilməsini nəzərdə tutur. Ona görə də bu sistemin tətbiqi üçün vacib şərtlərdən biri də Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına uyğun olaraq, aidiyyəti dövlət orqanlarının ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üzrə tələb olunan arayış və məlumatlara dair informasiya sistemlərini və ehtiyatlarını özlərinin «Elektron hökumət» portalına qoşulan informasiya sistemlərində və ehtiyatlarında yerləşdirmələridir».

Yeni sistem vətəndaşların ünvanlı sosial yardım üçün elektron formada müraciət etmələrinə şərait yaratmaqla bu müraciətlərə baxılması və yardımın təyin olunub-olunmaması barədə qərar qəbulu, eləcə də bu barədə vətəndaşların məlumatlandırılması işinin avtomatlaşdırılmış şəraitdə həyata keçirilməsini təmin edəcək. Nəticədə ünvanlı sosial yardımların təyinatında hansısa məmur müdaxiləsi mümkün olmayan şəffaf bir mühitin formalaşmasına, aztəminatlı ailələrin bu yardım sistemi üzrə sürətli, rahat və şəffaf xidmətlərə çıxışına imkan yaranacaq.

**Fəxriyyə İKRAMQIZI**



## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Sumqayıt şəhərində yaşayıram, birinci qrup müharibə əliliyəm. Mülkiyyətimdə olan yaşayış evinə görə mənə əmlak vergisi hansı qaydada hesablanmalıdır?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Məcəllə) 196-cı maddəsinə əsasən, fiziki şəxslər xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələrinə görə əmlak vergisinin ödəyiciləridir. Fiziki şəxslər əmlak vergisini onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə Sumqayıt şəhəri üzrə 0,3 manat məbləğ tətbiq edilməklə ödəyirlər (Vergi Məcəlləsi, maddə198.1).

Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyyə bildirişini avqustun 1-dən gec olmayaraq vergi ödəyicilərinə verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir. Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir (Vergi Məcəlləsi, maddə 200).

Onu da vurğulamaq lazımdır ki, Məcəllə əmlak vergisinin ödənilməsi üzrə müəyyən vergi güzəştlərini və azadolmaları da nəzərdə tutmuşdur. 199.3-cü maddədə qeyd edilir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, bu Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır. Qeyd edək ki, Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin siyahısına müharibə əlilləri də daxildir.

Məcəllənin 4.4-cü maddəsində və «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikasının 27 dekabr 2001-ci il tarixli Qanununun 10.2-ci maddəsində qeyd edilir ki, vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Orucov Oruc Təhməz oğlu yaşadığı evin yaxınlığında yerləşən ticarət köşkündə müxtəlif adda tütün məmulatlarının satışı ilə məşğul olub. Satdığı siqaretlərin böyük bir qismi aksiz markası ilə markalanmamış məhsullar olub ki, bu da vergi qanunvericiliyinin tələblərinin pozulması hallarına yol açıb.

Onun bir müddət davam edən bu əməllərinin qarşısı vergi orqanları tərəfindən qanunamüvafiq şəkildə alınıb və aparılmış operativ vergi nəzarəti tədbiri zamanı köşkdən 532,40 manat dəyərində 295 ədəd aksiz markası ilə markalanmamış tütün məmulatları aşkar olunub. Faktla bağlı araşdırma aparılıb və obyekt sahibinin Cinayət Məcəlləsinin 213-1.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132980171 nömrəli cinayət işi açılıb. Təqsirləndirilən şəxs istintaqa cəlb olunaraq barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilib.

İstintaqla müəyyən edilib ki, xırda ticarətlə məşğul olan O.Orucov aksiz markası olmayan siqaret məhsullarını qeyri-qanuni fəaliyyət göstərən müxtəlif satış yerlərindən əldə edib və onun bu əməlləri qanunsuz sahibkarlıq fəaliyyəti kimi qiymətləndirilməlidir. İş üzrə keçirilmiş kompleks əmtəəşünaslıq və fiziki-kimyəvi ekspertizanın rəyində də göstərilib ki, O.Orucovun xarici ölkələrin əmtəə nişanı adı altında satdığı «Parlament», «Marlboro gold orginal», «Marlboro filter plus», «Nanotek infina kent», «Micro Marlboro», «Lambert Butler», «Rich aroma», «Kent», «Macbeth 100s», «MM», «Muratti»və digər adda tütün məmulatları fiziki-kimyəvi göstəricilərinə görə istehlak üçün yararlıdır, zavod texnologiyası ilə hazırlanıb, lakin qanunsuz yolla satışa çıxarıldığından, obyekt sahibinin bu hərəkətləri cinayət əməli hesab olunur.

İstintaq zamanı müəyyən edilmiş hallar iş materialları ilə, o cümlədən təqsirləndirilən şəxsin səmimi etirafı və şahid ifadələri, həmçinin ekspertiza rəyi və sair mötəbər dəlillərlə tam sübuta yetirilib.

Xətai Rayon Məhkəməsi Oruc Orucovun 3 min manat məbləğində cərimə olunması barədə hökm çıxarıb.

**ELBRUS**

# Nağdsız hesablaşmaların genişləndirilməsi ilə bağlı işlər davam etdirilir

Mərkəzi Bank (MB) dövlət başçısının ölkədə nağdsız ödənişlərin inkişafı ilə bağlı müvafiq tapşırıqlarına uyğun olaraq, bu istiqamətdə həyata keçirilən işləri davam etdirməkdədir. MB-nın İdarə Heyətinin sədr müavini Alim Quliyev «Marja.az» saytına bildirib ki, son illərdə elektron ödəniş sistemlərinin yaradılması istiqamətində aparılan məqsədyönlü islahatlar nəticəsində ölkədə ən müasir texnologiya və proqram təminatlarına əsaslanan Milli Ödəniş Sistemi yaradılıb. Bu sistemin istifadəyə verilməsi ilə banklararası hesablaşmaların tam elektronlaşdırılmasına nail olunub. Vaxtilə həftələrlə vaxt aparan hesablaşma əməliyyatları hazırda bir neçə saniyə ərzində başa çatdırılır. Eyni zamanda, Mərkəzi Bank ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə layihəsi çərçivəsində «Azərpoçt» MMC nağdsız ödəniş bazarına fəal şəkildə cəlb olunub.



*Milli Ödəniş Sisteminin inkişafı ölkənin maliyyə sabitliyi və təhlükəsizliyi baxımından olduqca vacib əhəmiyyət kəsb etdiyindən MB adekvat qabaqlayıcı tədbirləri də genişləndirib*

A.Quliyev qeyd edib ki, 2015-ci ilin 1 iyul tarixinə ölkədə 926 filial və şöbəyə malik 43 bank, 1163 filial və müvafiq şöbəsində maliyyə xidmətləri göstərilən «Azərpoçt» MMC, həmçinin 157 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir ki, bunlar da Milli Ödəniş Sisteminin əsas infrastruktur elementlərini təşkil edir. Bu müddətədək ölkədə emissiya edilmiş ödəniş kartlarının ümumi sayı 6 milyon ədədə yaxındır. Hazırda ölkədə Mərkəzi Bankdan alınmış lisenziya əsasında fəaliyyət göstərən «AzeriCard» MMC və «MilliKart» MMC, həmçinin 7 bank tərəfindən prosessinq fəaliyyəti həyata keçirilir. Ölkə üzrə ümumilikdə 2716 ədəd bankomat və 78391 ədəd POS-terminalın əhatə olunduğu kart infrastrukturu formalaşdırılıb.

Respublikada 24 bank tərəfindən internet bankçılıq, 15 bank tərəfindən isə mobil bankçılıq xidməti müştərilərə təqdim olunur. Banklar tərəfindən elektron bankçılıq üzrə təqdim edilən xidmətlərin sayının artırılması, innovativ ödəniş alətlərindən təmassız ödəniş kartlarının emissiyası, daha müasir və çoxfunksiyalı ödəniş terminallarının quraşdırılması istiqamətində fəal iş gedir. Ödəniş sistemləri sahəsində vergi, rüsum və bu kimi büdcə ödənişlərinin toplanılmasını təmin edən Hökumət Ödəniş Portalının (HÖP) fəaliyyəti nəticəsində bütün kommunal xidməti təşkilatları, büdcə yığımlarının toplanılmasını həyata keçirən 12 dövlət orqanı, həmçinin stasionar və mobil rabitə xidməti göstərən 5 operator yaradılmış infrastruktura inteqrasiya olunub. Portala inteqrasiya edilmiş təşkilatlar üzrə ümumilikdə 300-dən çox növdə xidmətlərlə bağlı ödənişlərin ölkənin bütün regionlarında (Naxçıvan Muxtar Respublikası da daxil olmaqla) «Azərpoçt» MMC-nin və 40-dan çox bankın 1800-ə yaxın ödəniş məntəqəsində nağd formada və portalın internet resursundan istifadə olunmaqla ödəniş kartları vasitəsilə nağdsız qaydada qəbul edilməsi imkanları yaradılıb. 2015-ci ilin yeddi ayı ərzində sistemdə ümumi məbləğ 793,5 mln. manat təşkil etməklə, 16,1 milyon ödəniş tranzaksiyası emal olunub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə sistemdə emal edilən əməliyyatların həcmi 26,5% (210 mln. manat), əməliyyatların sayı isə 6% (0,96 mln. ədəd) artıb.

MB sədrinin müavini bildirib ki, hazırda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində yaradılmış «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlər üzrə ödənişlərin Hökumət Ödənişləri Portalı (HÖP) vasitəsilə qəbul olunması, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən yaradılmış «Elektron Hökumət» informasiya portalının bu infrastruktura inteqrasiyası istiqamətində intensiv işlər aparılır. Eyni zamanda, dövlət tədris müəssisələrində pullu təhsil alan tələbələrin ödənişlərinin mərkəzləşdirilmiş qaydada HÖP infrastrukturundan istifadə edilməklə toplanılması üzrə Təhsil Nazirliyi ilə birgə fəaliyyət göstərilir.

Mərkəzi Bank ölkədə yaradılmış ödəniş infrastrukturunun və nağdsız ödənişlərin inkişafı, nağdsız ödənişlər üzrə dövriyyənin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması məqsədilə aidiyyəti qurumlarla birgə gələcək hədəfləri də müəyyən edib. Həyata keçiriləcək islahatların koordinasiyası məqsədilə MB tərəfindən «2015-2020-ci illərdə Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Dövlət Proqramı» layihəsi hazırlanıb və aidiyyəti qurumlarla yekun razılaşdırılması həyata keçirilir. Layihənin məqsədlərindən irəli gələn əsas vəzifələrə Milli Ödəniş Sisteminin effektiv və təhlükəsiz fəaliyyətinin təmin olunması, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi, elektron bankçılığın inkişafı, innovativ ödəniş alətlərinin, o cümlədən elektron pulun istifadə imkanlarının və bank xidmətlərində müasir texnologiyalardan istifadənin genişləndirilməsi, habelə bank xidmətlərinin iqtisadi səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi daxildir.

Milli Ödəniş Sisteminin inkişafı ölkənin maliyyə sabitliyi və təhlükəsizliyi baxımından olduqca vacib əhəmiyyət kəsb etdiyindən MB adekvat qabaqlayıcı tədbirləri də genişləndirib. Bu istiqamətdə həyata keçirilən əsas layihələrdən biri «Milli Ödəniş Sisteminin Modernizasiyası» layihəsidir. Layihə çərçivəsində görülən işlər nəticəsində Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi beynəlxalq infrastrukturlarla yanaşı, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təqdim olunan Lokal Telekommunikasiya Şəbəkəsi üzərindən də fəaliyyət göstərməyə başlayıb. Eyni zamanda, sistemdə informasiya təhlükəsizliyinin təmin olunması üçün MB-nin Bank Sertifikat Xidmətləri Mərkəzinin xidmətlərindən istifadə edilir.

Digər tədbir isə ölkədə emissiya olunan ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin tam şəkildə ölkə daxilində həyata keçirilməsinin təmin olunması məqsədilə həyata keçirilən «Kart Ödənişləri üzrə Milli Şəbəkə»nin yaradılması layihəsidir. Hər iki layihənin həyata keçirilməsi ödəniş sistemlərinin təhlükəsiz və effektiv fəaliyyətinin təmin olunması, nağdsız hesablaşmaların səmərəliliyinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, POS-terminalların quraşdırılması və onlardan istifadə məsələsi Vergilər Nazirliyi tərəfindən ciddi nəzarətə götürülüb və nağdsız əməliyyatların həcminin artırılması üçün bütün obyektlərdə, xüsusilə ticarət, xidmət və iaşə sahəsində POS-terminalların quraşdırılması ilə bağlı işlər davam etdirilməkdədir. Bütün bunlara nazirlikdə yaradılmış qərargahı tərəfindən mütəmadi nəzarət həyata keçirilir.

2015-ci ilin birinci yarısında ölkəmizə 75 mindən artıq POS-terminal gətirilib və onların bir hissəsi kart vasitəsilə birbaşa təmas olmadan istifadəni nəzərdə tutan xüsusi qurğulardır. Hazırda respublikada POS-terminalların sayı 85 mindən çox olub. Onu da qeyd edək ki, 2015-ci ildə əlavə quraşdırılmış POS-terminalların sayında regionların payı daha çoxdur.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycanın sığorta bazarında artım müşahidə olunub

Sığortalanma halları geniş yayıldıqca sığorta işçilərinin öz müştəriləri qarşısında məsuliyyətləri və müxtəlif sığorta növlərinin populyarlıq dərəcəsi də artır.

Əhali arasında sığorta ödənişlərinin həqiqəti əks etdirməsi, sığorta şirkətlərinin ödədiyi iri həcmli təzminatlar elə həmin şirkət üçün mükəmməl reklam rolunu oynayaraq, müştəri artımına və ümumilikdə sığorta bazarında canlanmaya gətirib çıxarır.

2015-ci ilin yanvar-iyul aylarında Azərbaycandakı 27 sığorta şirkətinin xətti ilə 283,15 milyon manat sığorta haqqı toplanıb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına görə, bu, 2014-cü ilin eyni dövrünə nisbətən 12,5% çoxdur.

7 ay ərzində sığorta şirkətlərinin həyata keçirdiyi ödənişlər isə 104,8 milyon manat təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 34,4% çoxdur.

Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 37 manat ödəniş edilib. Bu rəqəm 2014-cü ilin yanvar-iyul aylarında 31 manat olub.

***Həyat sığortası bazarı***

2015-ci ilin yanvar-iyul aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 26%-i və yaxud 73,7 milyon manatı həyat sığortasının payına düşüb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına əsasən, 2014-cü ilin eyni dövrü ilə müqayisədə həyat sığortası bazarı 16% böyüyüb. Bu növ sığortadakı yığımların 57%-i və ya 42 milyon manatı həyatın yaşam sığortasının, 31,2%-i və ya 23 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 10%-i və ya 7,4 milyon manatı həyatın ölüm halından sığortasının, 1,2%-i və ya 916 min manatı əmək qabiliyyətinin sığortasının, cəmi 0,6%-i və ya 376 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb. 7 ay ərzində həyat sığortası üzrə həyata keçirilmiş ödənişlərin məbləği isə 31,4 milyon manat təşkil edib. Bu isə ümumi ödənişlərin 30%-ni təşkil etməklə, 2014-cü ilin eyni dövrünə nisbətən 6,5 dəfə çoxdur.

Həyat sığortası üzrə ödənişlərin 90,4%-i və ya 28,4 milyon manatı həyatın yaşam sığortasının, 4,75%-i və ya 1,5 milyon manatı həyatın ölüm halından sığortasının, yenə də 4,75%-i və ya 1,5 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, cəmi 0,1%-i və ya 13,7 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb.

Hesabat dövründə həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 42,6 manat ödəniş həyata keçirilib. 2014-cü ilin eyni dövründə isə bu rəqəm 7,6 manat olub.

***Qeyri-həyat sığortası bazarı***

2015-ci ilin yanvar-iyul aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 209,5 milyon manatı və ya 74%-i qeyri-həyat sığortasının payına düşüb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına görə, 2014-cü ilin eyni dövrünə nisbətən qeyri-həyat sığortası bazarı 11,3% böyüyüb.

Qeyri-həyat sığortası üzrə yığımların 22,2%-i və ya 46,5 milyon manatı tibbi sığortanın, 21,7%-i və ya 45,5 milyon manatı avtomobillərin icbari sığortasının, 9,3%-i və ya 19,5 milyon manatı daşınmaz əmlakın icbari sığortasının, 8,8%-i və ya 18,4 milyon manatı kasko sığortasının, 8,7%-i və ya 18,1 milyon manatı əmlakın yanğından və digər risklərdən sığortanın, qalan 29,3%-i və ya 61,5 milyon manatı isə digər qeyri-həyat sığortası növlərinin payına düşüb. 7 ay ərzində sığorta ödənişlərinin 70%-ni və ya 73,4 milyon manatını qeyri-həyat sığortası təşkil edib. Bu, 2014-cü ilin eyni dövrü ilə müqayisədə 0,3% çoxdur.

Qeyri-həyat sığortası üzrə ödənişlərin 39,1%-i və ya 28,7 milyon manatı tibbi sığortanın, 25,5%-i və ya 18,7 milyon manatı avtomobillərin icbari sığortasının, 19,9%-i və ya 14,6 milyon manatı kasko sığortasının, qalan 15,5%-i və ya 11,4 milyon manatı isə digər qeyri-həyat sığortası növlərinin payına düşüb.

Hesabat dövründə qeyri-həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqı müqabilində 35 manat ödəniş edilib. 2014-cü ilin ilk 7 ayında isə bu rəqəm 38,9 manat olub.

***Sığorta bazarının 63%-i könüllü formalaşıb***

2015-ci ilin yanvar-iyul aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 62,7%-i və ya 177,5 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına görə, bu, ötən ilin eyni dövrüylə müqayisədə 6,6% çoxdur.

İcbari sığorta növlərində yığım 105,6 milyon manat və ya bazarın 37,3%-ni təşkil edib. Ötən ilin eyni dövrünə nisbətən icbari sığorta bazarı 24,1% böyüyüb. 7 ayda ümumi ödənişin 76%-i və ya 79,6 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Könüllü sığorta üzrə ödəniş ötən ilin eyni dövrünə nisbətən 47,3% artıb.

İcbari sığorta növləri üzrə ödəniş isə 25,2 milyon manat və ya ümumi bazarın 24%-ni təşkil edib. Bu, ötən ilin eyni dövrünə nisbətən 5,3% çoxdur.

Hesabat dövründə könüllü sığortadan toplanmış hər 100 manat sığorta haqqı müqabilində 44,8 manat ödəniş həyata keçirilib. 2014-cü ilin eyni dövründə isə bu göstərici 32,5 manat olub. İcbari sığortadan toplanmış hər 100 manat üzrə ödəniş isə 28,1 manatdan 23,9 manata düşüb.

**Fəxriyyə İKRAMQIZI**

# «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumu

## Sentyabrın 9-11-də Vergilər Nazirliyinin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlığı çərçivəsində «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumu keçirilib



IOTA-nın digər forumlarından fərqli olaraq, təlim forumu vergi administrasiyalarının dolayısı ilə bütün fəaliyyət istiqamətlərini əhatə edir və bu tədbir üzv ölkələrin vergi orqanlarının təlim, tədris və insan resursları sahələrinə məsul şəxslərini bir araya gətirən platformadır. Xatırladaq ki, ildə bir dəfə keçirilən IOTA-nın təlim forumu 10 ildən artıqdır ki, mövcuddur və sonuncu dəfə 7-9 may 2014-cü il tarixlərində Makedoniya Respublikasının paytaxtı Skopye şəhərində keçirilib.

IOTA-ya üzv olan 25 ölkədən 39 nümayəndənin iştirak etdiyi Bakı forumunun ilk günündə qurumun Texniki Məsləhət Komitəsinin nümayəndəsi Yevgeniyus Soldatkovas əvvəlcə tədbirin təşkili və texniki məsələlər haqqında məlumat verərək bildirdi ki, bu məqsədlə yaradılmış Rəhbər Qrupun tərkibinə üzv dövlətlərin mütəxəssisləri cəlb olunub. Forum 2015-2016-cı illərdə yeni - «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumu adı altında fəaliyyətini davam etdirəcəkdir. Forum elektron tədris və mobil, smartfon, tablet və dizüstü kompüterlərdən, sosial tədris və sosial şəbəkələrdən istifadə, beynəlxalq müstəvidə əməkdaşlıq və akkreditasiya və vergi peşəkarlığı üzrə prioritet sahələri əhatə edir. Tədbir vergi sahəsində təlim və tədrisə dair təcrübələrin öyrənilməsi və mübadiləsi baxımından çox önəmlidir. Forumun əsas məqsədi vergi orqanlarına təlim və insan resursları sahələrində təcrübə mübadiləsi aparmağa, yeni tendensiyaları və təlim strategiyalarına ümumi yanaşmaları müəyyən etməyə, eləcə də bu sahələrdə tətbiq edilən metod və texnologiyalar və onların təkmilləşdirilməsinin yolları barədə müzakirələr aparmağa şərait yaratmaqdır.

Y. Soldatkovas bildirdi ki, forum IOTA-ya üzv dövlətlərin təlim və insan resurslarının idarə edilməsi sahəsinin mütəxəssislərinin böyük maraqla gözlədiyi tədbirdir. Azərbaycanın ev sahibliyi etdiyi forum zamanı iştirakçılar təlimin səmərəliliyini qiymətləndirmək, məktəblərdə vergi təhsili ilə bağlı proqramların və layihələrin tətbiqini təhlil etmək imkanı əldə edəcəklər. Həmçinin, tədbirdə vebinarlardan (veb seminar) istifadə, virtual təlim, peşəkar tədris və inkişafa dair videotəlimatlar kimi mühüm məsələlər müzakirə olunacaq.

İsveç Krallığının Vergi Agentliyinin İnsan Resursları Departamentinin aparıcı mütəxəssisi Ulrika Bergstedt bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətinə toxunaraq qeyd etdi ki, IOTA-nın əsas məqsədlərindən biri üzv ölkələrin ehtiyaclarına uyğun olaraq, qarşılıqlı əməkdaşlığın qurulması və dəstəklənməsidir. Qurum üzv dövlətlər arasında informasiya mübadiləsinin aparılması və kooperasiya məsələlərinə ciddi diqqət yetirir, bu məqsədlə vergi administrasiyalarının forumlarını, konfrans və seminarlarını təşkil edir, treninqlər keçirir, üzv dövlətlərə texniki köməklik göstərir. Tədbirin vergi sahəsində ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, yeni nailiyyətlərə yol açdığına gətirib çıxardığını xüsusi vurğulayan U.Bergstedt İsveçin təlim və digər vergi sahəsində Vergilər Nazirliyi ilə bir neçə ildir müxtəlif sahələr üzrə əməkdaşlıq etdiyini və bu əlaqələrdən məmnun olduqlarını bildirdi.

Macarıstan Milli Vergi və Gömrük Administrasiyasının əməkdaşı Zsolt Dezsi bildirdi ki, bu cür tədbirlər sahəsində Avropa ölkələrində vergi prosesləri, eləcə də Aİ-də vergi sistemlərinin harmonizasiyası və vahid standartların yaradılmasına dair məsələlərlə bağlı geniş tanışlıq imkanı yaradır. IOTA ilə əməkdaşlıq Azərbaycanın vergi sisteminin təkmilləşdirilməsi və vergi xidmətinin müasir dünya standartlarına uyğunlaşdırılması istiqamətində aparılan işlərin intensivləşdirilməsi, eləcə də Vergilər Nazirliyinin beynəlxalq əlaqələrinin inkişafı və vergi inzibatçılığı sahəsində dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Vergi Administrasiyalarında vebinarlardan istifadə barədə danışan Niderland Krallığının Vergi və



Gömrük Administrasiyasının Təlim Akademiyasının proqram meneceri Albert Van Tul öz ölkəsinin vebinarlardan istifadəyə dair təcrübəsi haqqında geniş məlumat verdi. Bildirdi ki, hazırda vergi administrasiyalarında tədris zamanı əsas diqqət göstərilən amillərdən biri vebinarlardan istifadənin genişləndirilməsidir. Tədqiqatlar göstərir ki, gələcək illərdə vebinarlardan istifadə iki dəfə artacaqdır. Avropa ölkələrinin administrasiyaları texnologiyalardan istifadənin rahatlığı, iştirakçıların «veb seminarlarına» çıxışını nəzərə alaraq vebinarlara üstünlük verirlər. IOTA Niderland Krallığının vebinarlarla bağlı yüksək təcrübəsini digər ölkələrlə bölüşməyi məqsədəuyğun hesab edib və bu məqsədlə cari il sentyabrın 1-də təşkil olunan vebinarda Azərbaycan Vergilər Nazirliyinin əməkdaşları da iştirak etmişlər.

Tədbirin «Marketplace» (göstər, bölüş, idarə et və öyrən) bölməsində isə iştirakçılar vergiyə dair bir sıra məsələlərin interaktiv müzakirəsini apardılar. Burada iştirakçı ölkələrin nümayəndələri vergidənyayınma risklərinin aradan qaldırılması, maarifləndirmədə vergi təlimi üzrə istifadə etdikləri metod və vasitələr və s. barədə məlumat verdilər.

Müzakirələr şəraitində davam edən tədbirdə təlimdə istifadə olunan vasitələr haqqında məlumat verildi, təlim vasitələri videoyayımla nümayiş etdirildi.

Şamaxıda yerləşən Tədris Mərkəzində keçirilən Təlim Forumunun ikinci günündə iştirakçı ölkələrin nümayəndələri Vergilər Nazirliyinin tədris prosesinin kiçik bir hissəsi ilə əyani şəkildə tanış oldular. Onlara tədris prosesinin əsas istiqamətləri və dinləyicilərin əldə etdikləri zəruri bilik və təcrübələr haqqında geniş məlumat verildi.

Azərbaycan Respublikası vergilər nazirinin müşaviri Ələkbər Məmmədov «Vergilər Nazirliyində təlim prosesinin təşkili» mövzusunda təqdimatla çıxış etdi. Bildirdi ki, insan resurslarının inkişafı vergi siyasətinin başlıca prinsiplərindən biridir və bu siyasət əsas məzmun etibarilə vergilərin məcburi yığılmasından könüllü əməletməyə keçidə xidmət edir. Bu məqsədlə qarşıya qoyulmuş vəzifələr kimi vergi qanunvericiliyinin



təkmilləşdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, xidmətlərin ünvanlılığının artırılması mühüm əhəmiyyətə malikdir. Vergilər Nazirliyi tərəfindən 2004-cü ildə qəbul olunmuş və uğurla icra edilən «İnsan resurslarının inkişafı strategiyası» bu istiqamətdə həyata keçirilən siyasətdə öz bəhrəsini verib: «Nazirliyin «Yol xəritəsi» hesab etdiyi təlim prosesi sistemli şəkildə bir neçə mərhələdən ibarətdir. Buraya təlim tələbatlarının öyrənilməsi, təhsil prosesinin planlaşdırılması, təlimin təşkili (3 komponentdən ibarət bu mərhələ təlimçilərin seçilməsi, təlim materialları və tədrisdən ibarətdir), biliklərin qiymətləndirilməsi, təlimin qiymətləndirilməsi, təhsil və ümumiləşdirmə daxildir. Səmərəli təlim prosesi öncə təşkilatın təlim strategiyasının, hədəf, məqsəd və vəzifələrin müəyyənləşdirilməsindən, daha sonra isə bu məqsədə nail olmaq üçün təlimlərə tələbatları aydınlaşdırmaqdan başlanır və həmin tələbatlara uyğun təlim proqramları qurulur. Proqramlar məhz strategiyaya əsasən tərtib olunur və təşkilatın təlim tədbirləri planına daxil edildikdən sonra təlim prosesi və iştirakçıların qiymətləndirilməsi həyata keçirilir. Konsepsiyanın həyata keçirilməsi sayəsində əsas komponentlər olan təbliğat, təlim, qiymətləndirmə, həvəsləndirmə, insan resurslarının idarə olunması sahəsində əhəmiyyətli nəticələr əldə edilib».

Ə.Məmmədov hazırda Vergilər Nazirliyində həyata keçirilən təhsilin idarə olunması sistemi barədə məlumat verərək qeyd etdi ki, nazirliyin İnsan Resursları İdarəsi və Tədris Metodiki Şura tərəfindən təhsil və təlim prosesinə nəzarət olunur. Bu sistemə nazirliyin aparatı, Bakı şəhərindəki və regionlardakı departamentləri, ərazi vergilər idarələri və rayon vergilər şöbələri daxildir. Beləliklə, nazirliyin mövcud resursları Tədris Mərkəzindən 10, nazirliyin strukturlarından 47 nəfərdən ibarət güclü təlim potensialından ibarətdir.

Ə.Məmmədov tədris və təlimdə Vergilər Nazirliyi ilə beynəlxalq qurumlar, xarici dövlətlər arasında səmərəli əməkdaşlıqdan danışaraq, bu istiqamətdə ən uğurlu layihə kimi «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsinin əhəmiyyətini vurğuladı: «Bu layihənin həyata keçirilməsində məqsəd Avropa İttifaqının prinsipləri əsasında daha yaxşı motivasiya edilmiş hazırlıqlı və təlim keçmiş peşəkar heyətə malik olmaqdır. 2 il müddətinə nəzərdə tutulan bu layihə çərçivəsində əsas gözləntilərimiz nazirliyin insan resurslarının inkişafı üzrə yeni strategiyanın və fəaliyyət planının hazırlanması, bu sahə üzrə qanunvericiliyin təkmilləşdirilməsi, bu istiqamətdə dayanıqlı tədris və tədris sisteminin yaradılması və tətbiqi, e-leaning platformasının təşkilindən ibarətdir».

Təlim prosesində videoresurslardan istifadə haqqında danışan Avstriyanın Federal Maliyyə Nazirliyinin Təlim Departamentinin təlim üzrə eksperti Stefan Fersterer bildirdi ki, onlayn rejimdə videotədris bir sıra mühüm üstünlüklərə malikdir. Öz ölkəsinin vergi inzibatçılığında elektron təhsil sisteminin tətbiqi layihəsinin mühüm yer tutduğunu bildirən natiq vergi sistemində təlim sisteminin modernləşdirilməsi, kadrların bilik və bacarıqlarının artırılması üzrə mərkəzi ofis yaradıldığını, təlimin müasir vasitələri və modul tipli baza sisteminin qurulduğunu diqqətə çatdırdı. O, virtual siniflər, təlimdə

*İnsan resurslarının inkişafı Azərbaycanın vergi siyasətinin başlıca prinsiplərindən biridir və bu siyasət əsas məzmun etibarilə vergilərin məcburi yığılmasından könüllü əməletməyə keçidə xidmət edir*

innovativ və onlayn vasitələrdən istifadə, beynəlxalq bilik və təcrübə mübadiləsi, əldə olunmuş nəticələr, qiymətləndirmə və qarşılıqlı əməkdaşlığın yeni meyilləri barədə də fikirlərini bölüşdü.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin nümayəndələri Telman Hüseynli və Vüsal Şıxəliyev «Vergilər Nazirliyinin e-kitabxanasının «Onlayn təlim» sistemi üzrə təlim qaydaları» adlı təqdimatla çıxış edərək nazirliyin e-kitabxanasının mövcud imkanları barədə məlumat verdilər. Bildirildi ki, e-kitabxanada vergi qanunvericiliyi, vergi və vergitutma məsələləri ilə bağlı hüquqi aktlar, aktual yeniliklər barədə informasiyalar, nazirliyin nəşrləri, eləcə də xarici ezamiyyələrə dair materiallar cəmlənib. Elektron informasiyaların vahid bazada toplanılması, əməkdaşların həmin informasiyalardan daha çevik istifadəsinin təmin edilməsi, vergi qanunvericiliyi və inzibatçılığına dair təkliflərin, o cümlədən xarici ezamiyyələr zamanı əldə olunmuş materialların yerləşdirilməsi və bu barədə fikir mübadiləsi üçün şərait yaradılması e-kitabxananın fəaliyyətinin əsas istiqamətləridir.

Vergilər Nazirliyinin hər bir strukturu üzrə e-kitabxananın işinə məsul şəxslər materialları e-kitabxanaya daxil edir, onları müntəzəm yeniləyirlər. E-kitabxana vasitəsilə hüquqi aktlar və materialların vahid məlumat bazasında toplanması, onların asan şəkildə axtarılması və əldə edilməsi, aidiyyəti hüquqi aktlara dəyişikliklər olunduqda operativ şəkildə yenilənmiş variantların təqdim edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi zamanı materialların uzun müddət ərzində internetdə axtarılmasına sərf olunan vaxta qənaət edilməsi mümkündür. Bundan başqa, burada əməkdaşların xarici ölkələrdə iştirak etdikləri konfrans, seminar və digər tədbirlər zamanı əldə etdikləri materialların, eləcə də beynəlxalq və regional təşkilatlar tərəfindən dərc olunan nəşrlər yerləşdirilib.

Elektron kitabxananın ən mühüm funksiyalarından biri «onlayn təlim» sistemi ilə təlimlərin keçirilməsidir. Bu sistem vasitəsilə vergi əməkdaşlarının təlim tələbatlarının elektron təhsil texnologiyaları əsasında qarşılanması, təlimlərin əhatə dairəsinin daha da genişləndirilməsi, əməkdaşlara iş yerindən ayrılmadan səmərəli şəkildə təlimləri izləmək imkanları mövcuddur. Sistemin tətbiqi innovativ texnologiya əsasında interaktiv təlimlərin təşkilinə, yerli və xarici mütəxəssislərin təlim prosesinə distant şəkildə təlimçi qismində cəlb olunmasına, vergi əməkdaşlarının fərdi hazırlığı və inkişafı üçün güclü baza deməkdir. Sistemin köməyi ilə təlim prosesinə qeyri-məhdud sayda iştirakçılar cəlb ediləcək, dinləyicilər üçün isə təlim materiallarının qabaqcadan öyrənilməsi mümkün olacaq.

Niderland Krallığının Vergi və Gömrük Administrasiyasının Təlim Akademiyasının məsləhətçisi Marjie Van Pijkeren qeyd etdi ki, qloballaşma şəraitində təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən e-təhsil texnologiyalarına tələbat get-gedə artır. E-təlim müasir telekommunikasiyalar və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əksəlaqə əsasında, uzaq məsafədən həyata keçirməyə geniş imkanlar yaradır.

Vergi təhsili üzrə mövzu ətrafında çıxış edən İtaliya Gəlirlər Agentliyinin insan resurslarının idarə olunması sahəsində məlumat, mübadilə və qiymətləndirmə üzrə mütəxəssisi Çinzia Kastelli təlim prosesi daxilində innovativ və onlayn vasitələrdən danışıb.

Sonra iştirakçılar kiçik qruplarda müzakirələr apardılar. Tədbirdə müxtəlif ölkələrin vergi administrasiyalarının təlim metodlarını, ən son yenilikləri əks etdirən kitabça-broşürlər, şəkil və plakatlar, disklər nümayiş olundu.

Öz işini Bakıda davam etdirən Təlim Forumunun üçüncü günündə iştirakçıların əsas işi təlim sahəsində əldə etdikləri təəssüratlarını, bilik və təcrübələrini bölüşməkdən ibarət oldu. IOTA-nın Texniki Məsləhət Komitəsi və Rəhbər Qrupun üzvləri müxtəlif sessiyalarda üzv dövlətlərin təlim sahəsindəki nailiyyətlərindən birgə istifadə və mübadilənin artırılması barədə fikir və təkliflər səsləndirdilər.

Fransanın Vergi Administrasiyasının əməkdaşı Xaviyer Ottava təlim prosesində tətbiq edilən yeni informasiya texnologiyaları (Web 2.0), sosial şəbəkələr, ayrı-ayrı ölkələrdə istifadə olunan yeni metod və üsullar barədə məlumat verdi. Peşəkar təlim və inkişafla bağlı fikirlərini bölüşən fransalı mütəxəssis bildirdi ki, e-təlim dövlət idarəetmə sistemində tədris xərclərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

Tədbirin sonunda forum haqqında təəssüratlarını bölüşən iştirakçılar IOTA-nın «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumuna həsr edilmiş veb səhifəsi ilə tanış oldular.

*Hazırladılar:*
**E.CƏFƏRLİ, F.İKRAMQIZI**

beynəlxalq panoram

# Gürcüstan hökuməti investorlara sadələşdirilmiş vergi sistemi təklif edir

Ölkənin Baş naziri İrakli Qaribaşvili Avropa Yenidənqurma və İnkişaf Bankının Tbilisidə keçirilən 24-cü illik görüşündə çıxış edərkən bildirib ki, Gürcüstan dünyada aşağı dərəcəli vergilərin və sadə vergi sisteminin mövcud olduğu dövlətlərdəndir. Ölkədə cəmi altı vergi növü tətbiq olunur, sosial vergi isə ümumiyyətlə yoxdur, Hökumət qətnamələrinin sürətli və effektiv icrası, ictimai informasiyanın açıqlığı və əlçatanlığı, sürətli və şəffaf xidmətlər təklif edir: «Səmərəli, minimal və məqsədyönlü tənzimləmə mexanizmlərinin mövcudluğu ölkəmizi sağlam biznesin aparılması üçün regional mərkəzə çevirib. İlkin hesablamalara görə, 2014-cü ildə Gürcüstana birbaşa xarici in-



vestisiyalar 1 mlrd. 272 mln. dollar təşkil edib ki, bu da 2013-cü ilin göstəricilərindən 35% çoxdur».

Baş nazir Gürcüstanın unikal geosiyasi mövqeyə malik olduğunu vurğulayaraq, ölkəsinin Avropa və Mərkəzi Asiya arasında enerji və tranzit qovşağı mərkəzinə çevrildiyini bildirib: «Hesab edirik ki, Gürcüstanın coğrafi mövqeyi ölkəyə tranzit məqsədləri üçün istifadə edilməkdən əlavə, həm də regional maliyyə mərkəzi rolunu oynamağa imkan verir. Burada beynəlxalq şirkətlərin yerləşdirilməsi və regional maliyyə mərkəzinin formalaşması üçün yaxşı mühit vardır».

Ölkə idxal mallarının 85%-nə vergini ləğv edib, qalan mallara isə idxal vergisi cəmi 5-12% təşkil edir. Baş nazirin sözlərinə görə, ölkədə gömrük və vergi prosedurları sadələşdirilmişdir. Vergi-gömrük sistemindəki islahatlar nəticəsində Gürcüstan müxtəlif beynəlxalq reytinqlərdə nisbətən yüksək mövqe tutur.

Potensial investorlara müraciət edən hökumət başçısı vurğulamışdır ki, Gürcüstan onlara hüquqi cəhətdən təhlükəsiz, keyfiyyətli, şəffaf və proqnozlaşdırılan qanunlar, sağlam arbitraj prosedurları, etibarlı məhkəmə və notariat sistemləri, məh-

Xarici ölkələrin təcrübəsi

# İspaniya Krallığının vergi sistemi: *mənfəət vergisi*



İspaniyada klassik ikiqat vergitutma sistemi tətbiq edilir - mənfəət ilk növbədə müəssisə səviyyəsində, daha sonra isə dividendlər səhmdarlar səviyyəsində müvafiq dərəcələrlə vergiyə cəlb olunur. Lakin artıq klassik sistem dəyişikliyə uğrayıb və rezident fiziki şəxslərə məhdud azadolma tətbiq edilir, bu məbləğdən artıq hissə isə azaldılmış vahid dərəcə ilə vergiyə cəlb olunur.

İspaniya rezidenti olan və İspaniyada daimi nümayəndəliyi olan bütün hüquqi şəxslər mənfəət vergisinin ödəyiciləridir. Mənfəət vergisi məqsədləri üçün rezident mənfəət vergisi ödəyiciləri dedikdə, bütün növ kommersiya müəssisələri, korporasiyalar (SA) və məhdud məsuliyyətli cəmiyyətlər (SRL) nəzərdə tutulur.

Müəssisə İspaniyada aşağıdakı şərtlərdən birinə cavab verirsə rezident hesab olunur:

- ispan qanunvericiliyi əsasında təsis edilmişdirsə;
- hüquqi ünvanı İspaniya ərazisində yerləşirsə;
- effektiv idarəetmə yeri İspaniyadadırsa.

İspaniya vergi orqanları «vergi cənnətləri» və ya aşağı vergi dərəcəsi olan ərazilərdə yerləşən müəssisələrin əsas kapitallarının ölkə ərazisində yerləşən daşınmaz əmlakdan və bu cür əmlaklara hüquqlardan ibarət olduğunu aşkar edərlərsə, yerləşmə yerinin iqtisadi məqsədəuyğunluğu və qiymətli kağızların idarə olunması yeri nəzərə alınmayaraq, bu cür müəssisələri İspaniya rezidenti hesab etmək hüquqları vardır.

***Vergi tutulan gəlir:*** Rezident müəssisələr dünya üzrə əldə etdikləri mənfəət və kapital gəlirlərindən mənfəət vergisi ödəyirlər. Vergi tutulan gəlir ümumi qaydaya uyğun olaraq, vergi ödəyicisinin mühasibat qeydlərinə əsasən, birbaşa hesablama metodu ilə müəyyən edilir. Lakin qanun bəzi hallarda qiymətləndirmə («forfait») metodu da tətbiq etməyə imkan verir. Vergi orqanları müstəsna olaraq hal sübutlarına əsaslanan dolayı metod da tətbiq edə bilərlər. Ümumi qaydaya uyğun olaraq, hər bir maliyyə dövrü üçün gəlir və xərclərin uçotu hesablama metodu ilə aparılır.

Vergidən azad olunan gəlir: Vergi qanunvericiliyində vergidən azad olunan gəlirlərin ümumi bir siyahısı yoxdur. Lakin bəzi hallarda gəlirlərin bir hissəsi (seçilmiş dividendlər) vergidən azad edilə bilər.

***Gəlirdən çıxılan xərclər:*** Mənfəət vergisi məqsədləri üçün sahibkarlıq xərcləri gəlirdən çıxılır. 01.01.2013-cü il tarixində və ya bundan sonra baş verən sahibkarlıq fəaliyyətinin dayandırılması ilə bağlı xərclərin gəlirdən çıxılması məhdudlaşdırılır. Bu cür xərclərin yalnız 1 mln. avro məbləği (1,3 mln. ABŞ dolları) gəlirdən çıxıla bilər. Bundan artıq məbləğ gəlirdən çıxılmır.

Gəlirdən çıxılmayan xərclər: Dividend və ya bu cür bölüşdürmələr, mənfəət vergisinin özü, cərimə və hesablanmış faizlər, siyahıda qeyd olunan «vergi cənnətləri»ndəki rezidentlərə ödənilən müəyyən növ ödəmələr, seçilmiş ianə alanlar istisna olmaqla, bütün növ hədiyyələrin məbləğinin gəlirdən çıxılmasına yol verilmir.

***Amortizasiya məbləğləri:*** Bütün maddi (torpaq istisna olmaqla) və qeyri-maddi əsas vəsaitlər normal istifadə müddətlərinə mütənasib olaraq amortizasiya edilir. Amortizasiya düzxətli, azalan qalıq dəyəri (binalar, mebel və qurğular istisna olmaqla) və illik dəyər göstəricisi metodları ilə amortizasiya oluna bilər. Amortizasiyanın hədləri rəsmi cədvəllərdə tərtib olunur.

Amortizasiya vəsaiti effektiv istifadəyə qəbul edildiyi vaxtdan etibarən hər bir vəsait üzrə ayrıca hesablanmağa başlayır. Bu zaman xüsusiləşdirilmiş mürəkkəb kompleks şəklində istifadə olunan hər bir qurğu üzrə ayrıca amortizasiya hesablanır.

Adi zərər və kapital zərərləri eyni hesab olunaraq, həmin maliyyə ilinin istənilən digər növ gəlirindən çıxıla bilər. 9/2011 saylı kral fərmanı ilə istifadə olunmayan zərərin növbəti dövrə keçirilməsi 15 ildən 18 ilədək artırılmışdır.

2011, 2012, 2013-cü illərdən başlanan vergi illəri üçün kral fərmanı növbəti dövrə keçirilməli olan zərərlər üçün maksimum həddi 12 aylıq dövriyyəsi 6.010.121,04 avrodan (7,8 mln. ABŞ dolları) çox olan müəssisələr üçün müəyyən etmişdir. Bu müəssisələr üçün istifadə edilməmiş zərərlər:

- müəssisənin 12 aylıq dövriyyəsi 20-60 mln. avro (26-78 mln ABŞ dolları) olarsa, vergitutma bazasının 75%-i;
- müəssisənin (12 aylıq) dövriyyəsi 60 mln. avrodan artıqdırsa, vergitutma bazasının 50%-i həcmində növbəti dövrə keçirilə bilər.

**Davamı növbəti sayımızda**

Davamı növbəti sayımızda




*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

## Xəbər lenti

**Türkiyə** Energi Nazirliyinin hazırladığı «Milli enerji hasilatı üzrə strateji plan» layihəsində elektrik və iqlim dəyişikliyi ilə bağlı verginin tətbiqi nəzərdə tutulur. Layihədəki hesablamaya əsasən, bu iki vergi üzrə yalnız 2017-ci ildə 5,2 milyard lirə (1,73 milyard manat) vəsait toplanacaq. Bu məbləğin 4,8 milyardı sənaye və ticarət abunələrinin üzərinə düşəcək.

**İngiltərə** hökuməti aviasiya sərnişinlərinin öhdəliklərini azaltmasa, ən azı 2,2 milyon sərnişin bu ölkənin hava limanlarından istifadədən imtina edərək Şotlandiya və Uelsi seçə bilər. Sentyabrın 8-də Böyük Britaniyanın ən iri nəqliyyat assosiasiyası olan ABTA ölkə hökumətini təyyarə sərnişinlərinin öhdəliklərini əvvəlcə azaltmağa, sonra isə tamamilə ləğv etməyə çağırıb.

**Ukrayna**nın maliyyə naziri Nataliya Yarsenko bütün lüks avtomobillər üçün, mühərrikinin həcmindən asılı olmayaraq, vergi ödənilməsi təklifi ilə çıxış etmişdir. «Ucuz maşın sahibləri mühərrikin həcmi 3 litrdən artıq olduğuna görə vergi ödədikləri halda, «Porsche» və digər bahalı maşınların sahibləri mühərrik tutumunun bundan az olduğuna görə vergidən azaddırlar», - nazir vurğulayıb.

**Yeni Zelandiya**da daşınmaz əmlak alqı-satqısı ilə məşğul olan əcnəbilərin qazandıqları gəlirdən bütün öhdəliklərin yerinə yetirilməsinə zəmanət üçün gəlir mənbəyində vergi ödəmək öhdəliyi müzakirə olunur. Ölkədaxili Gəlirlər Departamentinin yaydığı bəyanatda bildirilir ki, yaşayış təyinatlı daşınmaz əmlakın satışı üzrə qeyri-rezidentlər tərəfindən aparılan əməliyyatlardan gəlir mənbəyində vergi tutulması ilə bağlı təklif artıq ictimaiyyətlə məsləhətləşmə prosesindədir.

**Yunanıstan**da bu il 6,4 milyon nəfərdən artıq daşınmaz əmlak sahibi 3,2 milyard avro vergi ödəməli olacaq. Verginin ödənilməsi altı hissəyə bölünüb və ilk hissə 2015-ci il oktyabrın 31-dək ödənilməlidir. Lakin qanunvericiliyə əsasən, maliyyə imkanı aşağı olan vətəndaşlara 50%-lik vergi güzəşti tətbiq olunur və ya bəzi əhali qrupları vergidən azad edilir.

**Almaniya** kansleri Angela Merkel bildirib ki, onun ölkəsi bu il rekord sayda qaçqına sığınacaq versə də, bunun öhdəsindən vergiləri artırmadan və dövlət büdcəsinə təhlükə yaratmadan gələcək. Onun sözlərinə görə, gözlənildiyindən çox vergi yığımı sayəsində Berlin bu məqsədə 5 milyard avrodan artıq vəsait yönəltmək imkanındadır.

**ABŞ**-da nəşr olunan «The Wall Street Journal»ın yazdığına görə, əvvəllər Florida ştatının qubernatoru olmuş, hazırda isə Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizədliyini irəli sürmüş Ceb Buş vəd edib ki, ölkə başçısı seçilsə, iqtisadiyyatı stimullaşdırmaq üçün vətəndaşların vergi yükünü əsaslı şəkildə azaldacaq. O bildirib ki, Barak Obama hökuməti vergiləri daim artırmaqla iqtisadiyyatın illik vur-tut 2% böyüməsinə nail olub.

**Fransa** hökuməti 2016-cı ildə təxminən 2 milyard avro məbləğində vergi güzəşti edəcək. Ölkə Prezidenti Fransua Olland sentyabrın 7-də keçirilmiş mətbuat konfransında bu barədə bəyanat verib. Qeyd edək ki, ölkənin gələn il üçün iqtisadi artımı təxminən 1 faiz proqnozlaşdırıldığı halda, artıq bu göstəricinin 1,5 % olacağı gözlənilir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Sual-cavab kimi qurulan danışıq forması; 2.Orqanik birləşmə; 3.Kosovoda şəhər; 4.Cənubi Azərbaycan ərazisindəki kiçik çarlıqları və vilayətləri birləşdirərək mərkəzləşdirilmiş Manna dövlətinin əsasını qoyan hökmdar; 5.ABŞ-ın Missuri ştatında şəhər; 6.İt cinsi; 9.Rusiyada çay; 13.Qadın adı; 15.Baş rolda Pyer Rişar olmaqla Fransa rejissoru Fransua Veberin komediya filmi (1976); 16.Respublikamızda rayon; 17.Böyük Britaniyada titul; 18.Tanınmayan yeni bir ölkəyə daxil olmuş və orada məskən salmış, həmçinin elm, mədəniyyət sahəsində yeni bir cərəyanın əsasını qoymuş adam (yol açan, bani); 20.Çernoqoriyada şəhər və hava limanı; 21.Saturn planetinin peyki.

**Soldan sağa:** 1.Pedaqogikanın təlim və tərbiyə üsullarından bəhs edən şəbə; 5.İlin dörddəbir hissəsi; 7.İki samitin qovuşmasından yaranan yeni samit; məs.: rusca «Ц» (t+s), «Ç» (t+ş); 8.Xəstəlik və ya qocalıq nəticəsində əmək qabiliyyətini itirmiş şəxs (şikəst); 10.RF-nin Xabarovsk vilayətində çay; 11.Azərbaycanda rusdilli sayt (əvvəllər gündəlik ictimai-siyasi qəzet kimi fəaliyyət göstərib); 12.Azərbaycan dramaturqu C.Cabbarlının pyesi; 14.Kimyəvi element (qaz); 19.Çobanyastığıkimilər fəsiləsinə aid bitki cinsi; 21.Boliviyada çay; 22.İndoneziyanın tərkibində ada; 23.Pizzaya bənzər populyar türk yeməyi; 24.Hər hansı musiqi səsinin şərti qrafik işarəsi; 25.Siqaret və papiros daşınması üçün tənəkə qutu.



*Baş rolda Pyer Rişar olmaqla Fransa rejissoru Fransua Veberin komediya filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kolumb; 2.Evqenol; 3.Dodge; 4.Şıxəli *(Qurbanov)*; 5.Kazan; 6.Bayquş; 9.Akif *(Cəfər oğlu Hacıyev)*; 13.Ansa; 15.Ukrayna; 16.Obyekt; 17.Qarant; 18.Unikum; 20.Rozid; 21.Taraz. **Soldan sağa:** 1.Krepdeşin; 5.Kub; 7.Laqodexi; 8.Azay; 10.Monte; 11.Lakhnau; 12.Alpan; 14.Əfruz; 19.Barista; 21.Toran; 22.Elza *(İbrahimova)*; 23.Babruysk; 24.Tad; 25.Entuziazm.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləşçilərimiz Olimpiya Oyunlarına 11 lisenziya qazandılar



Millimizin iki zv d nya empionu ad na layiq g r ld

Amerika Birləşmiş Ştatlarının Las Veqas şəhərində 2016-cı ildə Braziliyanın Rio-de Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarına ilk lisenziyaların qazanıldığı güləş üzrə Dünya çempionatı başa çatıb.

Sentyabrın 8-dən 12-dək keçirilən çempionatda ilk olaraq yunan-Roma güləşçiləri mübarizəyə başlayıblar. Yarışlara uğurla start verən millimizin üzvləri Rövşən Bayramov (59 kq), Elvin Mürsəliyev (75 kq), Saman Təhmasibi (85 kq) və Sabah Şəriəti (130 kq) növbəti Olimpiya Oyunlarına ilk lisenziyaları qazanıblar.

Çempionat qadın güləşçilərin qarşılaşmaları ilə davam etdirilib. Bu növdə ölkəmizi təmsil edən Mariya Stadnik (48 kq), Anjela Doroqan (53 kq) və Yuliya Ratkeviç (58 kq) millimizin aktivinə daha 3 Olimpiya lisenziyası yazdırıblar.

Ənənəvi olaraq sərbəst güləşçilərin çıxışları ilə yekun vurulan Dünya çempionatında Azərbaycan yığma komandası Olimpiya çempionumuz Toğrul Əsgərov (65 kq), Məhəmmədhacı Xatiyev (86 kq), Cəmaləddin Məhəmmədov və Xetaq Qazyumovun (97 kq) sayəsində gələn il keçiriləcək Yay Olimpiya Oyunlarına növbəti vəsiqələri əldə edib.

Qeyd edək ki, bu çempionatda yunan-Roma güləşçimiz Rəsul Çunayev ikiqat dünya çempionu adını qazanıb. Rövşən Bayramov (59 kq) gümüş, Saman Təhmasibi (85 kq) bürünc, qadın güləşçilərdən Mariya Stadnik (48 kq) gümüş, Yuliya Ratkeviç (58 kq) bürünc, sərbəst güləşçilərdən Hacı Əliyev (61 kq) qızıl, Xetaq Qazyumov (97 kq) isə bürünc medallara yiyələniblər.

Çempionatda sonuncu çıxış edən Cəmaləddin Məhəmmədov (125 kq) ilk olaraq iraqlı Mohammed Sabah, ardınca Yaponiya təmsilçisi Nobuyoşi Arakidanı məğlub edib. 1/4 finalda Monqolustan güləşçisi Çuluunbat Jarqasaixanı təmiz qələbə ilə üstələyən həmyerlimiz yarımfinalda Gürcüstan təmsilçisi Geno Petriaşvili də heç bir şans verməyib. Final görüşündə türkiyəli güləşçi, Avropa və Dünya çempionu Taha Akgülə məğlub olan Cəmaləddin Dünya çempionatını gümüş medalla başa vurub. Beləliklə, Azərbaycan yığması Olimpiadaya 11-ci lisenziyasını qazanıb.

Məlumat üçün bildirək ki, Las Veqasda keçirilən Dünya çempionatında 2016-cı il Rio-de Janeyro Yay Olimpiya Oyunlarına ilk lisenziyalar qazanılıb. Çempionatda yunan-Roma güləşi üzrə, 59, 66, 75, 85, 98 və 130 kq, qadın güləşi üzrə 48, 53, 58, 63, 69 və 75 kq, sərbəst güləş üzrə isə 57, 65, 74, 86, 97 və 125 kq çəki dərəcələrində ilk 5 yeri tutan idmançılar Olimpiadaya birbaşa vəsiqə əldə ediblər.

# Azərbaycan millisi Avropa çempionudur

Sentyabrın 12-də polo üzrə Bakıda keçirilən Avropa çempionatı başa çatıb. Azərbaycan, Almaniya, İrlandiya, İsveçrə, İtaliya və İspaniya yığma komandalarının qatıldığı yarışların sonuncu günündə əvvəlcə beşinci və üçüncü yer uğrunda oyunlar keçirilib.

İsveçrə seçməsini 7:5 hesabı ilə məğlub edən İtaliya komandası Avropa çempionatında beşinci yerə sahib olub. İkinci görüşdə isə İrlandiya poloçuları İspaniya kollektivindən üstün olaraq turnirdə üçüncülüyə yiyələniblər.

Çempionatın final görüşündə Elçin Camallı, Tərlan Qurbanəliyev və Silvester Qarrosdan ibarət Azərbaycan millisi yarışın qalibi uğrunda Almaniya yığması ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə Azərbaycan poloçuları rəqibləri üzərində 6:5 hesabı ilə qələbə qazanaraq Avropa çempionu adına sahib olublar. Beləliklə, Azərbaycan yığması çempionatda keçirdiyi 6 oyunun hamısını qələbə ilə başa vuraraq böyük uğura imza atıb.

Bununla da Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF), «Elit Atçılıq və Polo» klubunun və «World Polo»nun birgə təşkilatçılığı ilə Beynəlxalq Polo Federasiyası (BPF) tərəfindən Binə Atçılıq Mərkəzində keçirilən arenada polo üzrə birinci Avropa çempionatına yekun vurulub.

Sonda qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Komandalara mükafatlar və kuboklar təqdim olunub. Avropa çempionlarına - Azərbaycan yığma komandasının üzvlərinə qızıl medalları və əsas kuboku ARAF-ın prezidenti Elçin Quliyev təqdim edib. Mərasim möhtəşəm atəşfəşanlıqla başa çatıb.

# Azərbaycan velosipedçisi İtaliyada 3-cü oldu

Yola saldığımız həftə Azərbaycanın «Synergy Baku» kontinental komandası üçün uğurlu nəticələrlə yadda qalıb. Azərbaycan velosipedçiləri Çexiya və İtaliyada təşkil olunan yarışlarda uğurlu nəticələr qazanıblar.



Azərbaycan Velosiped İdmanı Federasiyasından aldığımız məlumata görə, Beynəlxalq Velosipedçilər İttifaqının Çex Respublikasında təşkil etdiyi 2.2 kateqoriyalı, 3 mərhələdən ibarət «East Bohemia Tour» veloyürüşündə «Synergy Baku» komandasının 6 üzvü - Elçin Əsədov, Maksim Averin, Matey Müqerli, Yannis Tamuridis, Markus Eybeger və iyulda Çində aldığı ağır zədəsini sağaldan Aleksandr Surutkoviç iştirak edib. Yüz əlli səkkiz kilometrlik ilk mərhələdə Maksim Averin altıncı, Yannis Tamuridis isə səkkizinci nəticə göstərib. Yüz yetmiş səkkiz kilometrdən ibarət sonuncu mərhələdə isə nəticəmiz daha yüksək olub. Belə ki, məsafəni mərhələ qalibindən 6 saniyə sonra başa vuran Matey Müqerli finiş xəttini ikinci keçib. Markus Eybeger 6-cı, Maksim Averin isə 10-cu olub.

İtaliyada təşkil edilən 2.2 kateqoriyalı «Giro della Regione Friuli Venezia Giulia» veloyürüşündə isə yığma komandamızın 4 üzvü - Samir Cəbrayılov, Tural İsgəndərov, Elgün Əlizadə və İsmayıl İlyasov mübarizə aparıb. Yarışın sonuncu mərhələsində 168 kilometr məsafəni 3 saat 56 dəqiqə 10 saniyəyə qət edən Samir Cəbrayılov fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

# Dağ velosipedi üzrə açıq respublika çempionatı

Azərbaycan Velosiped İdmanı Federasiyasının 2015-ci ildəki təqvim planına uyğun olaraq, Dağ Velosipedi Parkında açıq federasiya kuboku yarışlarının ikinci mərhələsi keçirilib. Yarışda peşəkar idmançılarla yanaşı, həvəskar dağ velosipedçiləri də iştirak ediblər.

Reqlamentə əsasən, elit və U-23 yaş kateqoriyasında mübarizə aparan iştirakçılar 2,1 kilometrlik marşrut boyunca 7 dövrə vurublar. Gözlənildiyi kimi, bu yaş qrupunda çempion adını Respublika Olimpiya Ehtiyatları ixtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin təmsilçisi Aqşin İsmayılov qazanıb. Onun komanda yoldaşları Orxan Məmmədov və Vüsal Abuşov, müvafiq olaraq, 2-3-cü yerləri bölüşüblər.

Gənclər və U-17 yaş qrupunun velosipedçilərinin mübarizəsi 4 dövrə davam edib. Burada da Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin təmsilçisi Samir Şıxəlizadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Həmin məktəbin üzvü Kamil Sərkərov üçüncü olub. İkinci yerə isə «SOCAR» komandasının üzvü Vüqar Nəsibov layiq görülüb.

Üç dövrə mübarizə aparan 15 yaşadək idmançılar arasında Respublika Olimpiya Ehtiyatları ixtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbini təmsil edən Osman Qəhrəmanov hamını qabaqlayıb. Sonrakı 2 yeri «Atasport» klubunun üzvü Bəylər Ağayev və «SOCAR»dan Növhər Nuriyev tutub.



mozaika

## Süni mikrozəlzələlər kömək edir

tədqiqat

Geofizikanın müasir metodları heç bir qazıntı işi aparmadan arxeoloji obyektlərdə tədqiqat aparmağa kömək edəcək.

Rusiyanın Novosibirsk Universitetinin tələbələri Rusiya Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun alimləri ilə birgə Altay ərazisində süni mikrozəlzələlər yaratmaqla arxeoloji abidələri tədqiq ediblər. Onların tədqiqat obyekti kurqan kompleksləri və qədim yaşayış məskənləri olub.

Mütəxəssislər seysmik metodlardan istifadə etməklə əsl süni zəlzələlər yaradıblar. Dalğaların yayılma sürətinin analizi nəticəsində tədqiqatçılar arxeoloji abidələrin harada yerləşməsini və strukturunu öyrəniblər.

Universitetin geofizika fakültəsinin magistrantı Georgi Loginovun sözlərinə görə, cihaz çox yüksək tezliklə titrəyiş yaradır ki, bu da yerin altında ən xırda obyektləri müəyyənləşdirməyə imkan verir. Yeni seysmik metodlar əvvəllər arxeoloqlar üçün əlçatmaz olan arxeoloji materialları aşkara çıxarmağa kömək edib.

## Ovqatın rəngi

*ABŞ-ın Roçester Universitetinin mütəxəssisləri insanın əhval-ruhiyyəsi ilə rəng duyumu arasında qarşılıqlı əlaqə aşkar ediblər. Tədqiqatda 127 könüllü tələbə iştirak edib.*



Amerika alimləri könüllüləri iki qrupa ayırıblar. Birinci qrup qəmli süjeti olan videoçarxlara, ikinci qrup isə şən süjetli videoçarxlara tamaşa ediblər. Eksperimentin ikinci mərhələsində tələbələrə 48 müxtəlif rəng göstəriblər və bu rənglərin hansı rəng kateqoriyasına (sarı, yaşıl, qırmızı və ya göy) aid olduğunu soruşublar. Məlum olub ki, kədərli videoçarxlar rəng duyumunda konkret dəyişikliklər yaradıb. Birinci qrupdakı könüllülər göy-sarı oxdakı rəngləri şən videolara baxanlara nisbətən daha pis ayırd ediblər.

Müşahidə edilib ki, ovqatı təlx olan adamlar dünyanı həqiqətən boz və darıxdırıcı görürlər. Alimlərin fikrincə, bu, xoşbəxtlik səviyyəsini müəyyən edən dofamin hormonunun baş beyində əmələ gəlməsinin azalması ilə bağlıdır.

sağlam həyat tərzi

## «Unudulmuş» tropik xəstəliklər əleyhinə...

Dünya Səhiyyə Təşkilatı (DST) «unudulmuş» tropik xəstəlikləri 2020-ci ilədək aradan qaldırmaq məqsədilə sanitariya və sudan istifadə sahəsində xidmətlərin genişləndiyini elan edib. DST-nin ekspertləri tərəfindən 17 «unudulmuş» tropik xəstəlik, o cümlədən Denge, cüzam, leyşmanioz, drakunkulez, quduzluq, traxoma, Şaqas xəstəliyi və s. əleyhinə mübarizə üzrə qlobal fəaliyyət planı işlənib hazırlanıb. BMT Xəbərlər Mərkəzindən bildirildiyinə görə, bu plan su ehtiyatlarının idarə olunması və sanitariya sahəsində xidmətlərin yaxşılaşdırılması ilə bağlı tədbirləri nəzərdə tutur.

DST-də qeyd ediblər ki, «unudulmuş» xəstəliklər korluğa, eybəcərləşməyə, davamlı əlilliyə və ölümə, habelə dünya əhalisinin bir milyarddan çox ən zəif və yoxsul təbəqəsinin əzab çəkməsinə gətirib çıxarır. Təmiz içməli su çatışmazlığı, pis yaşayış şəraiti və sanitariya səviyyəsinin aşağı olması infeksiyalara yol açır. 2015-ci ildə 660 milyondan çox adamın təmiz su içmək imkanı olmayıb, təqribən 2,5 milyon adam lazımi sanitariya xidmətlərindən məhrum olub. Hər il «unudulmuş» tropik xəstəliklərdən 500 minədək adam ölür.



**Müdriklər deyib ki...**



*«Gedəcəyi limanı tanımayan adama heç bir küləyin köməyi dəyməz».*

*Mişel Monten (1553-1592)*